Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 30 iyul 2022-ci il (şənbə)

❐ № 133 (5655), 2022-ci il

Helikopter qəzasında 8 nəfər həlak olub

Azərbaycan Gürcüstana başsağlığı verib



"Azərbaycan bu çətin zamanda Gürcüstanın yanındadır".

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov gürcü həmkarı İlya Darçiaşviliyə tviter hesabında ünvanladığı başsağlığında bildirib. XİN başçısı Gürcüstanın Qudauri bölgəsində sərhəd polisi helikopterinin qəzaya uğraması barədə xəbərdən çox kədərləndiyini qeyd edib: "Biz həlak olanların ailələrinə və dost Gürcüstan xalqına dərin hüznlə başsağlığı veririk".

Gürcüstanda Tetri Araqvi vadisində "Mi-8" tipli helikopterin qəzaya uğraması nəticəsində 8 nəfər ölüb. Həlak olanların 4-ü ekipaj üzvü, digər 4-ü isə xilasedici və tibb işçiləridir.

Bu gün Məhərrəm ayı başlayır

Azərbaycanda Məhərrəm ayının başlayacağı tarix açıqanıb.

Bu barədə Qafqaz Müsəlmanları İdarəsi məlumat yayıb. Hicri-qəməri təqvimi ilə 1443-cü il başa çatır, yeni 1444-cü ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə 2022-ci il iyul ayının 30-na, Aşura günü isə avqust ayının 8-nə təsadüf edir.

Şuşanın adı Qoşulmama Hərəkatı tarixinə yazılacaq

25-29 iyul tarixlərində Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı (QH) Gənclər Sammiti çərçivəsində, Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq QH üzv ölkələrinin gənclərini birləşdirən QH Gənclər Təşkilatı yaradılıb.

Şuşa Akkordu (Şuşa razılaşması) kimi tarixə düşən QH Gənclər Təşkilatının yaradılmasına dair sənəd, ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın adının QH tarixinə yazılmasına xidmət edəcək.

QH Gənclər Şəbəkəsinin yaradılması, Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü əsasında Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində QH Parlament Şəbəkəsinin yaradılmasından sonra ikinci mühüm təşəbbüsdür.

Təşkilatın Mənzil-qərargahı Bakı şəhərində yerləşəcək. Bununla yanaşı üzv dövlətlərin təmsil etdikləri digər bölgələrdə regional ofislər təsis ediləcək. Təşkilata sədrlik qarşıdan gələn 3 il müddətinə Azərbaycan nümayəndəsi tərəfindən ediləcək.

(səh.2)

Ceyhun Bayramov səfiri məlumatlandırdı

"Ermənistan sülhün təmin edilməsi istiqamətində çətinliklər yaradır"

29 iyul 2022-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Slovakiya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Milan Layçakı qəbul edib.

XİN-dən verilən xəbərə görə, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb.

(səh.2)

"Alimlər arasında ixtisarlar qətiyyən nəzərdə tutulmur"

Elm və təhsil naziri bir-birini təkrarlayan institutların birləşdirilməsini istisna etməyib

"Elm və Təhsil Nazirliyi elmi qurum deyil". Bunu elm və təhsil naziri Emin Əmrullayev AzTV-nin "Hədəf" verilişində deyib. Nazir bildirib ki, söhbət təhsillə elm arasındakı koordinasiyadan gedir:

"Bu, elmi fəaliyyətin koordinasiyası, daha çox bu işin inzibati idarə edilməsi üçündür. Yeni maliyyələşmə mexanizmlərin tətbiqi nəzərdə tutulur".

Nazir qeyd edib ki, əvvəl təhsillə elm arasında bir-birini təkrarlayan, bir-birini tamamlamayan fəaliyyətlər var idi. Bu addım koordinasiyalılığı təmin edəcək: "Elmlə bağlı suallar, prioritetlər Elmlər Akademiyası tərəfindən müəyyən edilir. Elm, tədris və tədqiqatları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Eyni zamanda, ali təhsil müəssisələrində kadr hazırlığının daha mükəmməl olması üçün tədqiqatların aparılması vacibdir. Ali təhsil müəssisələrində bu mühit bəzən mümkün olub, bəzən mümkün olmayıb. Lakin islahatlardan sonra buna müvəffəq ola biləcəyik".

(səh.5)

ABŞ Dövlət Katibi Lavrovla telefonla danışıb

Entoni Blinken Rusiyanı iki amerikalını azad etməyə çağırıb

ABŞ Dövlət Katibi Entoni Blinkenlə Rusiya xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

APA-nın "Associated Press"ə istinadən xəbərinə görə, bu barədə E. Blinken məlumat verib. O, bildirib ki, söhbət zamanı qarşı tərəfi Rusiyada saxlanılmış iki amerikalı - Paul Uilan və Britani Qrinerin azad edilməsinə çağırıb. Dövlət katibi Blinken S.Lavrovun cavabının detallarını açıqlamayıb.

Qeyd edək ki, Blinken daha əvvəl saxlanılmış amerikalıların azad edilməsi üçün Rusiyaya vacib təklif çağırışı edib. Sözügedən təklif ABŞ-da həbsdə olan rusiyalı silah taciri Viktor Bout ilə saxlanılmış amerikalıların dəyişdirilməsi olub.

Yaxın illər üçün yeni taxıl mənbələri tapılmalıdır

Çörəyin qiymətinin optimal olması üçün ən uyğun yol idxaldan asılılığın azaldılmasıdır



Nazirlər Kabineti tərəfindən ərzaqlıq buğdanın tədarük qiyməti müəyyənləşib.

Dövlət Ehtiyatları Agentliyi kabinetin müəyyənləşdirdiyi keyfiyyət standartlarına uyğun olan buğdanın hər tonuna 580 manat ödəyəcək. Məqsəd buğda ilə özünütəmine tmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin genişləndirilməsidir.

(səh.3)



Ukrayna hərbi əsirlərə görə BMT-yə çağırış edib

Ukraynanın xarici işlər naziri Dmitri Kuleba ukraynalı hərbi əsirlərin saxlanıldığı Yelenovkadakı həbsxanaya zərbə ilə bağlı BMT-yə çağırış edib.

APA xəbər verir ki, ukraynalı nazir bu barədə "Twitter"də bildirib.

"Azovstal"dan ukraynalı hərbçilərin təxliyəsinə şərait yaratmış BMT-ni Rusiyanı Yelenovka həbsxanasını atəşə tutduğuna görə qətiyyətlə qınamağa və bu dəhşətli cinayətin bütün faktlarını müəyyən etmək üçün əraziyə səfər etməyə çağırıram. Mən həmçinin BQXK-nı ukraynalı bütün hərbi əsirlərin vəziyyətini yoxlamağa çağırıram", - nazir vurğulayıb.

2 nəfər vəfat edib

Daha 373 nəfər koronavirusa yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 373 yeni yoluxma faktı qeydə alınıb, 321 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 798 011 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 786 056 nəfər müalicə olunaraq sağalıb, 9 746 nəfər vəfat edib, aktiv xəstə sayı 2 209 nəfərdir.

Bərdədə arvadı 28 yaşlı ərini öldürüb

Aysu Çərkəzli şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib

Bərdə rayonunda 28 yaşlı kişi arvadı tərəfindən qətlə yetirilib.

Bərdə rayon prokurorluğundan verilən məlumata görə, iyulun 29-da Bərdə rayonu Şorəli kənd sakini 1994-cü il təvəllüdlü Nurlan Çərkəzlinin öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin arvadı 1994-cü il təvəllüdlü Aysu Çərkəzlinin qısqanclıq zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirməklə Nurlan Çərkəzlini qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Faktla bağlı Bərdə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Aysu Çərkəzli şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

"ABŞ yekun sülhün bərqərar olmasında maraqlıdır"

Əziz Əlibəyli: "Proses Rusiya tərəfindən ciddi əks mövqe yaradacaq"

(səh.3)

"Elmə yanaşma dəyişməli, yeni sistem qurulmalıdır"

Qulu Məhərrəmli: "İlkin addımlar atıldıqdan sonra bu mənzərə bizə tam aydın olacaq"

(səh.5)

Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evi əsaslı təmir olunub

Prezident İlham Əliyev və birinci xanım yaradılan şəraitlə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində 2 nömrəli doğum evində aparılmış əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma doğum evində yaradılan şərait barədə məlumat verildi.

Azərbaycanda əhalinin sağlamlığı hər zaman dövlət siyasətinin mərkəzində dayanır. Bu baxımdan ölkəmizdə səhiyyə sisteminin inkişafı, maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yenilənməsi istiqamətində mühüm addımlar atılır. Dövlətimizin başçısının təşəbbüsü ilə bu sahədə həyata keçirilən layihələr insanların sağlamlığının etibarlı qorunmasına xidmət edir. Müalicə-diaqnostika mərkəzlərinin, xəstəxanaların tikilməsi və əsaslı şəkildə yenidən qurulması, müasir avadanlıqlarla təchiz olunması bunun əyani təsdiqidir.

Qeyd edək ki, 2 nömrəli doğum evi 1987-ci ildə istifadəyə verilib. Uzunmüddətli istismar nəticəsində bu tibb müəssisəsində əsaslı təmirə ehtiyac yarandığından dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə 2 nömrəli doğum evinin əsaslı təmiri üçün Prezidentin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılıb.

Məlumat verildi ki, əsaslı şəkildə təmir edilən 120 çarpayılıq bu səhiyyə müəssisəsində ən müasir tələblərə uyğun tibbi avadanlıqlar quraşdırılıb. Üçmərtəbəli binada ümumilikdə 51 palata var. Tibb ocağında 80 çarpayılıq doğum, 30 çarpayılıq ginekologiya və 10 çarpayılıq reanimasiya şöbələri fəaliyyət göstərir. Burada vətəndaşlara həm ambulator, həm də stasionar xidmət göstəriləcək. Əvvəllər Səhiyyə Nazirliyinin nəzdində olan 2 nömrəli doğum evi 2021-ci ildən "Sabunçu Tibb Mərkəzi" publik hüquqi şəxsin tabeliyindədir.

Azərbaycanda yeni tikilən səhiyyə ocaqları, ölkəmizə gətirilən müasir tibbi avadanlıqlar bir məqsədə - əhalinin sağlamlığının qorunması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.

Bu prosesdə Heydər Əliyev Fondunun da misilsiz xidmətləri var. Bütövlükdə əhalinin, xüsusən də ana və uşaqların sağlamlığının qorunması Fondun fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın birbaşa təşəbbüsü ilə həyata keçirilən tədbirlər genefondumuzun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı surətdə həllinə yönəlib. Bu doğum evinin əsaslı şəkildə yenidən qurulması da ölkəmizdə ana və uşaqların sağlamlığının qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin daha bir əyani təsdiqidir.

Şuşanın adı Qoşulmama Hərəkatı tarixinə yazılacaq

25-29 iyul tarixlərində Azərbaycanda keçirilən Qoşulmama Hərəkatı (QH) Gənclər Sammiti çərçivəsində, Hərəkatın 61 illik tarixində ilk dəfə olaraq QH üzv ölkələrinin gənclərini birləşdirən QH Gənclər Təşkilatı yaradılıb.

Şuşa Akkordu (Şuşa razılaşması) kimi tarixə düşən QH Gənclər Təşkilatının yaradılmasına dair sənəd, ölkəmizin mədəniyyət paytaxtı olan Şuşanın adının QH tarixinə yazılmasına xidmət edəcək.

QH Gənclər Şəbəkəsinin yaradılması, Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü əsasında Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində QH Parlament Şəbəkəsinin yaradılmasından sonra ikinci mühüm təşəbbüsdür.

Təşkilatın Mənzil-qərargahı Bakı şəhərində yerləşəcək. Bununla yanaşı üzv dövlətlərin təmsil etdikləri digər bölgələrdə regional ofislər təsis ediləcək. Təşkilata sədrlik qarşıdan gələn 3 il müddətinə Azərbaycan nümayəndəsi tərəfindən ediləcək.

Bu təşkilatın yaradılması, QH Gənclər Sammitində iştirak edən üzv dövlətlərin nümayəndələri tərəfindən müsbət qarşılanıb və dəstəklənib, QH üzv ölkələrinin gənclərini birləşdirən bu mühüm təşəbbüsə görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

2021-ci ilin 4 oktyabr tarixində Azərbaycanın təşəbbüsü ilə yaradılan QH Gənclər Şəbəkəsinin QH Gənclər Təşkilatına çevrilməsi ilə, QH üzv ölkələrinin gənclərini birləşdirən bu təsisat, beynəlxalq platformalara daha rahat çıxış imkanı əldə edib.

QH Gənclər Sammiti çərçivəsində Şuşaya səfər edən QH üzv ölkələrinin nümayəndə heyətləri, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal altında saxlanması, həmin dövrdə baş vermiş dağıntılar barədə məlumatlandırılıb, həmçinin Azərbaycan hökuməti tərəfindən həyata keçirilən bərpa və yenidənqurma işləri, o cümlədən Şuşa şəhərinin tarixi və memarlıq abidələri ilə tanış olublar.

Xatırladaq ki, QH 4 qitədən 120 ölkəni özündə birləşdirir. Azərbaycan 2019-cu ildən Hərəkata sədrlik edir. Sədrlik müddəti 2022-ci ildə başa çatmalı olsa da, üzv dövlətlərin yekdil qərarı ilə sədrliyimiz əlavə 1 il müddətinə uzadılıb.

Ceyhun Bayramov səfiri məlumatlandırdı

"Ermənistan sülhün təmin edilməsi istiqamətində çətinliklər yaradır"

29 iyul 2022-ci il tarixində xarici işlər naziri Ceyhun Bayramov Slovakiya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Milan Layçakı qəbul edib.

XİN-dən verilən xəbərə görə, səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir Ceyhun Bayramov səfiri təyinatı münasibətilə təbrik edərək, ona fəaliyyətində uğurlar arzulayıb. Azərbaycanla Slovakiya arasında ikitərəfli əlaqələrin daha da genişlənməsi üçün böyük potensialın mövcud olduğunu, son bir neçə il ərzində həyata keçirilən intensiv siyasi dialoq və yüksək səviyyəli səfər mübadilələrinin əməkdaşlığa müsbət töhfə verdiyini diqqətə çatdırıb.

Səfir Milan Layçak Slovakiyanın Azərbaycanla bütün müstəvilərdə əməkdaşlığının əhəmiyyətli olduğunu, xüsusilə iqtisadi əlaqələr olmaqla, müxtəlif istiqamətlərdə əməkdaşlığının genişlənməsinə çalışacağını diqqətə çatdırıb. 2023-cü ildə diplomatik münasibətlərin qurulmasının 30 illiyinin əhəmiyyət daşıdığını vurğulayıb. Səfir Slovakiya şirkətlərinin ölkəmizə marağının daha da artdığını qeyd edib. Enerji, nəqliyyat, kiçik və orta biznesin inkişafı kimi sahələrə önəm verildiyini bildirib.

Nazir Ceyhun Bayramov səfirə 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranmış yeni vəziyyət, üçtərəfli bəyanatların icrası ilə bağlı tərəfimizdən görülən tədbirlər, Ermənistan tərəfinin üzərinə götürdüyü öhdəliklərə uyğun olmayan davranışları və sülhün təmin edilməsi istiqamətində çətinliklər yaratması, azad olunmuş ərazilərdə insanların həyatına birbaşa təhlükə olan mina təhdidi, post münaqişə dövründə həyata keçirilən bərpa və quruculuq işləri barədə məlumat verib. Slovakiya şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə olan marağını müsbət qarşılayıb.

Səfir bir daha ölkələrimiz arasında münasibətlərin daha da inkişafı naminə səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

"Kim reketçiliklə məşğul olursa, o artıq jurnalist deyil"

Elçin Şıxlı: "Bununla da Kamran Əliyev məşğul olmalıdır, əlində dəlil varsa, tutsun və ifşa etsin"

Son dövrlər ölkədə "reket jurnalistika"sına qarşı mübarizə güclənib. Reketçiliklə məşğul olan qəzet, sayt, media "outletləri", ayrı-ayrı şəxslər, hətta QHT-lər ifşa edilir. İnsanlara "reketçilik" anlayışının nə olduğu zəruri olaraq aşılanır və mübarizə yolları göstərilir.

Hətta bununla bağlı Baş prokuror Kamran Əliyev kanalların birinə müsahibə də verib. O qeyd edib ki, "reket jurnalistika" şərti termindir: "Burada söhbət hədə-qorxu ilə tələb etmədən gedir. Bu, bəzən jurnalist fəaliyyətindən istifadə etməkdir və ya jurnalistlərin öz fəaliyyətidir. Bu tək jurnalistlərlə bağlı deyil, bəzən elə sosial media istifadəçiləri tərəfindən də yol verilir. Bunun adı konkret olaraq Cinayət Məcəlləsində hədə-qorxu ilə tələb etmədir.

Belə hallar yolverilməzdir. Bu artıq jurnalistika fəaliyyəti ilə heç bir əlaqəsi olmayan sırf cinayətkar bir fəaliyyətdir. Hansı ki, tək jurnalistikada deyil, digər fəaliyyət növlərində də biz bunu görürük, müşahidə edirik və bu kimi faktları aşkarlayıb şəxsləri məsuliyyətə cəlb edirik".

Azərbaycan Jurnalistlər Birliyinin sədri, "Ayna.az" saytının təsisçisi Elçin Şıxlı da reketçiliyə və prosesə öz münasibətini bildirib. O, "Şərq"ə açıqlamasında qeyd edib ki, jurnalist reketçiliklə məşğul olursa, deməli o, jurnalist deyil: "O, cinayətkardır. Cinayətkarla da Cinayət Məcəlləsinə, yaxud İnzibati Məcəlləyə uyğun şəkildə davranmaq lazımdır.

Müşahidə etməyə heç bir ehtiyac yoxdur. Yəni kimsə reketçiliklə məşğul olursa, o şəxs jurnalistlər sırasından çıxır.

Bununla da Kamran Əliyev məşğul olmalıdır. Əlində dəlil varsa, tutsun və ifşa etsin.

Nə qədər ki, rüşvət alan məmurlar var, onlar hər zaman rüşvət verməyə hazır olacaqlar.

Çünki özləri rüşvətxordurlar. Bu səbəbdən də üstlərinə gələn adamlara pul verirlər ki, sirləri açılmasın. Bir sözlə, bu, qarşılıqlı prosesdir. Rüşvətxorlar jurnalistikada reketçiləri yaradırlar. Mənim üstümə kimsə gəlsə, heç kimə pul verəsi deyiləm. Çünki mənim korrupsiya ilə bağlı heç bir problemim yoxdur. Korrupsiya ilə problemi olanlar rüşvət verməyə hazırdırlar. Ona görə də jurnalistlər və digərləri arasında reketçilər əmələ gəlir".

Çimnaz Şahlar

AMEA-nın üzərinə ciddi vəzifələr qoyuldu

Bu qurum Azərbaycan elmində öz sözünü deməyi və yerini qorumağı bacarmalıdır

Dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb. Fərmanda elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə mühüm struktur dəyişiklikləri yer alıb.

İstər müasir dünyanın çağırışları, istərsə də ölkənin yeni sosial-iqtisadi reallıqları kontekstində strateji əhəmiyyətə malik elm və təhsilin müasir tələblər səviyyəsində inkişafı baxımından Fərman olduqca mühüm əhəmiyyətə malikdir. Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, müasir dövrdə bütün istiqamətlərdə həyata keçirilən strategiyaların, meqalayihə və konsepsiyaların əsasında, istisnasız olaraq, elmin və təhsilin inkişafı, o cümlədən yüksək hazırlıqlı kadr potensialı dayanır. Odur ki, ölkədə yeni reallığın yarandığı hazırkı şəraitdə elmi potensialın inkişafı strateji əhəmiyyət daşıyır. Məhz bunun nəticəsidir ki, son on ildə sürətlə inkişaf edərək regionun lider dövlətinə çevrilən Azərbaycanda elmi fəaliyyət sahəsində mühüm nailiyyətlər əldə edilib. Heç də təsadüfi deyil ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"nda son 10 ildə əldə edilmiş əsas nailiyyətlərdən biri kimi, elmi fəaliyyət sahəsində olan uğurlar xüsusi olaraq qeyd edilib. Sənəddə göstərilib ki, son 10 ildə "elmi tədqiqat potensialı müasirləşdirilib. Tətbiqyönlü tədqiqatların aparılması genişləndirilib, müasir texnologiyaların tətbiqi imkanları yaranıb və bu prosesdə əqli mülkiyyətin rolu artırılıb. Elmin müxtəlif sahələri üzrə tədqiqatlara dair nəşrlərin sayı sürətlə artıb. Son 5 ildə akademik nəşrlərin sayı 80 faiz artıb. Cənubi Qafqaz ölkələri arasında Azərbaycan bu göstərici üzrə 2018-ci ildən etibarən hər il mütəmadi olaraq birinci yerdə qərarlaşıb. Cənab Prezident tərəfindən təsdiq edilmiş Strategiyada əksini tapmış bu nailiyyətlər son 10 ildə dövlətin elmi fəaliyyət sahəsində həyata keçirdiyi siyasətin nəticəsi olaraq Azərbaycan alimlərinin gərgin əməyi və səyi hesabına mümkün olub. Bütün bunlarla yanaşı, onu da qeyd etmək lazımdır ki, zəngin ənənələrə malik Azərbaycan elminin və təhsilinin optimallaşdırılması və strukturun təkmilləşdirilməsi istiqamətində konkret tədbirlərin həyata keçirilməsi hazırda qarşıda duran əsas vəzifələrdəndir. Son illər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mühüm istiqamətlərindən birini idarəetmə sisteminin optimallaşdırılması, şəffaflığın artırılması, kadrlardan daha səmərəli istifadə edilməsi kimi kompleks yeniliklər təşkil edir. Bu islahatların əsas məqsədi ölkənin siyasi, iqtisadi və mədəni həyatının əsaslı şəkildə modernləşdirilməsidir. Belə şəraitdə elmi fəaliyyət sahəsində struktur islahatları, elm və təhsili vahid sistemdə birləşdirən dövlət tənzimlənməsinin həyata keçirilməsi vacib idi. Bu baxımdan Fərman mühüm funksional əhəmiyyətə malikdir.

Ceyhun Məmmədov: "Fərman Azərbaycan Milli Elmlər Akademiyasının ləğv olunması anlamına gəlmir. Əksinə, elm və təhsilin inteqrasiyasında yeni mərhələnin başlaması məqsədi daşıyır"

Millət vəkili Ceyhun Məmmədov deyib ki, Prezidentin Fərmanı bir çox aspektlərdən xüsusi əhəmiyyət daşıyır. Deputat bildirib ki, Fərman həm Elm və Təhsil Nazirliyinə, həm də Milli Elmlər Akademiyasına növbəti etimad kimi qiymətləndirilməlidir: "Sənəddə qeyd olunduğu kimi, Fərmanın imzalanmasında əsas məqsəd elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsidir. Həmçinin, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsidir. Sözügedən Fərman elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin uğurla həyata keçirilməsinə, bu sahədə koordinasiyalı fəaliyyətin qurulmasına öz töhfəsini verəcək. Uzun müddətdir Azərbaycan cəmiyyətində Elmlər Akademiyasının gələcək fəaliyyəti ilə bağlı geniş müzakirələr aparılırdı. Qeyd etmək lazımdır ki, Fərman Azərbaycan Milli Elmlər Akademiyasının ləğv olunması anlamına gəlmir. Əksinə, elm və təhsilin inteqrasiyasında yeni mərhələnin başlaması məqsədi daşıyır. Azərbaycan Milli Elmlər Akademiyası humanitar yönümlü elmi müəssisələri ilə öz fəaliyyətini yeni inkişaf prioritetləri istiqamətində davam etdirəcək. Burada Milli Elmlər Akademiyasının da üzərinə ciddi vəzifələr düşür. Bu qurum Azərbaycan elmində öz sözünü deməyi və yerini qorumağı bacarmalıdır. Beləliklə, Fərmanla Elm və Təhsil Nazirliyi, eləcə də Milli Elmlər Akademiyası qarşısında bir sıra yeni mühüm vəzifələr müəyyənləşdirir. İnanırıq ki, Elm və Təhsil Nazirliyi və Milli Elmlər Akademiyası onun qarşısında qoyulan ağır və məsuliyyətli işin öhdəsindən layiqincə gələcək. Bu müqəddəs vəzifənin icrasında hər iki quruma uğurlar arzulayırıq".

İsmayıl Qocayev

Taxıl ixracına başlanılacaq

Zelenski daşınmaya nəzarət üçün Odessa limanına gəlib

Ukrayna Prezidenti Vladimir Zelenski Odessa vilayətinə işgüzar səfəri zamanı Çernomorsk Dəniz Ticarət Limanında Ukrayna taxılının ixrac üçün gəmiyə yüklənməsi ilə tanış olub.

APA xəbər verir ki, bu barədə Ukrayna hökumətinin saytında məlumat verilib.

"İlk gəmi müharibə başlayandan yüklənib. Bu türk gəmisidir", - Ukrayna dövlət başçısı bildirib.

Ukrayna Prezidentinin sözlərinə görə, müharibənin başlaması ilə əlaqədar yola çıxa bilməyən bir neçə gəminin göndərilməsi ilə taxıl ixracına başlanılacaq: "Ukrayna taxıl daşımalarının başlanması ilə bağlı tərəfdaşlardan - Birləşmiş Millətlər Təşkilatının nümayəndələri və Türkiyədən müvafiq siqnallar gözləyir. Çox yaxın günlərdə ixrac başlaya bilər. Biz tam hazırıq, tərəfdaşlarımıza - BMT və Türkiyəyə siqnal göndərmişik və ordumuz təhlükəsizlik vəziyyətinə zəmanət verir. İnfrastruktur naziri Türkiyə tərəfi və BMT ilə birbaşa təmasdadır, gözləyirik".

Qeyd edək ki, Zelenski ilə yanaşı, limana G7 ölkələrinin səfirləri də gəlib. Prezident Zelenski Odessadakı tibb müəssisələrinin birində müalicə alan ukraynalı hərbçilərə də baş çəkib.

Artıq erməni kartı Türkiyə əleyhinə keçərli deyil

Qərb Ankaranın dünya düzəninin qorunub saxlanmasındakı rolunu dərk etməlidir

Türkiyə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 76-cı sədri, Maldiv adalarının Xarici işlər naziri Abdulla Şahidin Ermənistana səfəri çərçivəsində qondarma "soyqırımı" abidəsini ziyarət etməsinə sərt reaksiya verib. Türkiyə Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı bəyanatda bildirilib ki, rəsmi Ankara tarixi faktları və beynəlxalq hüququ siyasi manipulyasiya yolu ilə saxtalaşdırma cəhdlərini qınayır və rədd edir:

"Abdulla Şahidin Ermənistana səfərinin birtərəfli erməni tezisləri üçün alət olduğu və bu kontekstdə qondarma "soyqırım abidəsini" ziyarət etməsi anlaşılmaqdadır.

BMT Baş Assambleyasına sədrlik kimi ədalətli və qərəzsiz bir vəzifəni üzərinə götürmüş adıçəkilən şəxs daha diqqətli və məsuliyyətli davranmalı idi. Təşkilatın səlahiyyətli orqanlarını təmsil edən şəxslər beynəlxalq hüquq norma və qaydalarına, xüsusən də BMT-nin 1948-ci il "Soyqırımın qarşısının alınması və cəzalandırılmasına dair Konvensiya"sına uyğun hərəkət etməlidirlər". Türkiyə XİN vurğulayıb ki, 1915-ci il hadisələri ilə bağlı faktlar tam, ədalətli və dürüst bir çərçivədə müzakirə edilməlidir.

Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, Abdulla Şahidin Ermənistana səfəri zamanı qondarma "soyqırım" abidəsini ziyarət etməsi Türkiyəyə qarşı ənənəvi siyasi təzyiq vasitəsidir. Partiya təmsilçisi qeyd edib ki, artıq bu sayaq ziyarətlərə alışmışıq: "Lakin Qərb hələ də Türkiyənin dünya düzəninin qorunub saxlanmasındakı rolunu, əhəmiyyətini tam dərk etmir. Təxribat xarakteri daşıyan ziyarət Türkiyəni haqlı olaraq qıcıqlandırsa da, hüquqi təsiri olmadığı üçün əhəmiyyətsiz gediş sayılmalıdır. Baş Assambleya qanunverici orqan olsa da, qondarma "soyqırım" iddialarını tanımaq barədə hüquqi sənəd qəbul etməyib. Qərb və Rusiya bölgədə sülhün təmin olunmasında maraqlı görünsələr də, yanaşma tərzləri başqadır. Rusiya Qarabağda ümumən stabillik istəsə də, gələcəkdə problemi alovlandıracaq ip uclarının qalmasını istəyir. Qərb üçün isə problemin kimin xeyrinə çözülməsi fərq etmir. Qarabağ və ətraf rayonlarımız işğal altında olanda Qərb bizə təzyiq edirdi ki, "uduzmuş vəziyyətdəsiz və torpaqların geri qaytarılması perspektivi yoxdur". Hazırkı durumda isə eyni tələblər Ermənistan qarşısında qoyulur. Fransa müharibədən sonra bir qədər atılıb-düşsə də, reallıqla razılaşmalı oldu".

Politoloq vurğulayıb ki, Türkiyənin hərbi potensialının durmadan artdığı bir şəraitdə qondarma "soyqırım" iddiaları regionda elə bir şərait yarada bilər ki, Ermənistan dövlət olaraq tarixin səhnəsindən silinər: "Onsuz da Qafqazda erməni dövlətçiliyi anlayışı olmayıb. Rusiyanın Türkiyə əleyhinə düzüb-qoşduğu bu ölkənin tarixi missiyası da sona çatıb. Artıq erməni kartı Türkiyə əleyhinə keçərli deyil. Bu yaxınlarda Rusiyanın Türkiyədən hərbi texnikaların alınması üçün danışıqlara başlaması xəbəri də münasibətlərin yaxınlaşmasına işarədir. Rusiya xüsusən "Bayraktar"ların alınmasına böyük maraq göstərir. F-35 qırıcılarını Türkiyəyə verməkdən boyun qaçıran Amerika bundan sonra bir daha düşünməlidir".

İsmayıl Qocayev

Amerika Azərbaycan və Ermənistan arasında birbaşa dialoqa töhfə vermək istəyir. Bu barədə ABŞ-ın Dövlət Departamentinin Mətbuat xidmətindən bildirilib.

Həmçinin Dövlət Departamentindən vurğulanıb ki, Cənubi Qafqazda regional nəqliyyat əlaqələrinin yaxşılaşdırılması regional iqtisadi artım perspektivlərinə müsbət təsir göstərə və Ermənistanla Azərbaycan arasında hərtərəfli sülhə şərait yarada bilərik.

Xatırladaq ki, iyulun 25-də ABŞ-ın Dövlət katibi Entoni Blinken Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Söhbət zamanı E.Blinken qeyd

"ABŞ yekun sülhün bərqərar olmasında maraqlıdır"

Əziz Əlibəyli: "Proses Rusiya tərəfindən ciddi əks mövqe yaradacaq"

edib ki, ABŞ Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasının tərəfdarıdır. Dövlət katibi həmçinin ABŞ-ın Ermənistan və Azərbaycan arasında nəqliyyat əlaqələri və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstək verməyə hazır olduğunu bildirib.

Amerikanın Rusiya arxasında gücə çevrilmək üçün iddialarının artdığını deyən beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə söylədi ki, bölgədə Moskva-Vaşinqton hərbi toqquşmasına səbəb ola biləcək proseslərdən boyun qaçırmalıyıq: "Amerikanın rəsmi siyasəti anti-Rusiya üzərində qurulub. Ağ Ev Ukrayna müharibəsi gedişində Rusiyanın maraq dairəsində olan bütün bölgələrdə əlavə cəbhələrin yaradılmasında maraqlıdır. Həmçinin Qafqaz da bunların sırasına daxildir. Lakin ABŞ və Böyük Britaniyanın regionda 1990-cı illərdən həyata keçirdiyi enerji siyasəti də dinamik olubdur. Xüsusilə neft, qaz sazişlərini və nəqliyyat məsələlərini qeyd etmək lazımdır. İndi bu məsələlər yenidən gündəmə gəlir.

Ümumiyyətlə, isə Ağ Ev Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olmasına çox maraqlıdır. ABŞ Azərbaycanın iqtisadi müttəfiqidir. Bununla yanaşı, Ermənistanın indiki hakimiyyətinin kökü də Amerikadakı erməni lobbisidir. Ağ Evin hər iki ölkəyə münasibəti həmin prinsiplərə əsaslanır.

Sual yaranır ki, rəsmi Vaşinqtonun proseslərə qarışması Rusiyanın varlığı fonunda mümkün olacaqmı? Kremlin müharibədə hələ də, davam gətirməsi, bütün Qərbin onunla savaşı və bunun nəticəsində dünyanın ağır böhrana düçar olması onu göstərir ki, proses Rusiya tərəfindən ciddi əks mövqe yaradacaq. Buna görə də rəsmi Moskvanın istənilən addımları atmağı mümkündür".

Nihat Müzəffər

Yaxın illər üçün yeni taxıl mənbələri tapılmalıdır

Çörəyin qiymətinin optimal olması üçün ən uyğun yol idxaldan asılılığın azaldılmasıdır

Nazirlər Kabineti tərəfindən ərzaqlıq buğdanın tədarük qiyməti müəyyənləşib. Dövlət Ehtiyatları Agentliyi kabinetin müəyyənləşdirdiyi keyfiyyət standartlarına uyğun olan buğdanın hər tonuna 580 manat ödəyəcək. Məqsəd buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin genişləndirilməsidir.

Bu, Prezidentin ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə qəbul etdiyi "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanının icrası çərçivəsində həyata keçirilən işlərin davamı kimi qiymətləndirilməlidir. Qeyd edək ki, son illər dövlət tərəfindən buğdanın alış qiymətində artımlar müşahidə olunur. Buğdanın hər tonuna görə dövlət fermerlərə son illər daha çox vəsait ödəyir. Ötən il ilə müqayisədə buğdanın dövlət alış qiyməti 14 faiz artırılır. 2021-ci ildə 1 ton buğdaya görə 500 manat ödənilirdi. 2020-ci ildə bu göstərici 380, pandemiyadan əvvəlki il isə 300 manat olub. Bütövlükdə, 2019-cu il ilə müqayisədə buğdanın dövlət alış qiyməti bu il 50 faizə yaxın artırılır.

Millət vəkili Vüqar Bayramov bildirib ki, qərar fermerləri buğda istehsalına təşviqi məqsədi daşıdığı üçün bu, taxıl yetişdirilməsinə marağı daha da artıracaq. Deputatın sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi fonunda strateji ərzaq və xüsusən taxıl ilə tə-

minatda idxaldan asılılığın aradan qaldırılması daha da prioritetləşib: "Bu il müşahidə olunan qlobal buğda qıtlığının gələn il də davam edəcəyi gözlənilir. İxrac həcminə görə dünyada ilk beşliyə daxil olan Ukrayna fermerləri çox az ərazilərdə ilkin şumlama işləri apara bilib. Azərbaycan ailələri üçün çörək əsas istehlak məhsullarından biri olmaqla yanaşı mətbəxdə xüsusi paya malikdir. Ölkəmizdə gündəlik çörək istehlak etməyən az sayda ailələr var. Bu baxımdan, çörəyin qiymətindəki dəyişikliklər həmçinin digər ərzaq mallarının qiymətinə də psixoloji təsir göstərir. Rəsmi statistikaya görə, Azərbaycanın illik buğda tələbatı 3,5 milyon tondur. Azərbaycanda buğdaya olan tələbin 40 faizi idxal hesabına ödənilir. İdxalda ən böyük paya 90 faizlə Rusiya sahib idi. Qazaxıstan da buğda idxal etdiyimiz ölkələr siyahısında olsa da Rusiya ilə müqayisədə kiçik çəkiyə malik idi. İllik buğda idxalımız 1 milyon tondan çoxdur. Ötən il idxal etdiyimiz buğdanın qiyməti təxminən 30 faiz bahalaşmışdı".

Parlament üzvünün fikrincə, ən uyğun yol idxaldan asılılığın aradan qaldırılmasıdır: "2021-ci ildə ölkədə 595 min hektar ərazidə buğda əkilib. Praktik olaraq əkin sahələrinin 38 faizi buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur və son illər istehsalda cüzi olsa da artımlar müşahidə edilməkdədir. İşğaldan azad olunan ərazilərimizin də buğda istehsalına xüsusi töhfə verəcəyi gözlənilir. Son qərarın buğda ehtiyatlarımızın artırılmasına müsbət təsir edəcəyi gözlənilir. Bununla yanaşı, yaxın illər üçün yeni idxal mənbələrinin tapılması da çox vacibdir. Taxıl ehtiyatlarının artırılmasında digər məqsəd çörəyin qiymətini optimal saxlamaqdan ibarətdir. Dünya bazarında taxılın qiymətindəki artımlar idxal inflyasiyası yaradır. Nazirlər Kabineti isə anti-inflyasiya tədbirləri çərçivəsində dünya bazarındakı qiymət artımlarının təsirlərini minimumlaşdırmağa çalışır. Aydındır ki, çörəyin qiymətinin optimal olması üçün ən uyğun yol idxaldan asılılığın azaldılmasıdır. Bütövlükdə, subsidiyalar məbləği fonunda taxılın dövlət alış qiymətinin artırılması və hər il Nazirlər Kabineti tərəfindən tənzimlənməsi yerli istehsalın gücləndirilməsinə dəstək olacaq".

İsmayıl Qocayev

Rusiya "Bayraktar"a sahib ola bilər...?

Ancaq ondan effektiv istifadə edə bilməyəcək

"Rusiya Prezidenti V.Putinin türkiyəli həmkarı R.T.Ərdoğanın "Bayraktar" PUA-ların birgə istehsalı ilə bağlı müraciətinə müsbət yanaşacağını ehtimal etmək olar".

Bu barədə "Şərq"ə politoloq Azər Qasımov deyib. Lakin analitik bildirib ki, razılaşma və birgə istehsal baş tutsa belə "Bayraktar"ların rus ordusunun yenidən dirçəlməsinə səbəb olma ehtimalı çox aşağıdır: "Əvvəla "Bayraktar"ların effektli işləməsinin əsas səbəbi digər elektronik sistem olan "Koral" və yeni modifikasiyalarla birlikdə işləməsidir. Digər tərəfdən "Bayraktar" sisteminin proqram yazılımı ordunun ümumi sisteminə uyğunlaşdırılmalıdır. PUA-ların əsas üstünlüyü bu amilə bağlıdır. Ən nəhayət, artıq "Bayraktar"dan daha müasir və yeni sistemlərin mövcudluğudur. Belə nəticəyə gəlmək olar ki, Rusiya bu silaha sahib olsa da, ondan effektiv istifadə edə bilməyəcək. Əksinə, Türkiyə Rusiyanın silah sistemlərinin sirlərini ələ keçirə bilər. Çünki ən azı Rusiyanın hava hücumundan müdafiə sistemləri "Bayraktar"ı özününkü hesab etməlidir ki, döyüşdə onu vurmasın. Bu da əsas faktordur. Digər yandan "Bayraktar" istehsalında bir çox Qərb ölkəsinin hərb sənayesi məhsulundan istifadə edilir. Məsələn, optik sistem Kanadadan alınır. Rusiyaya tətbiq edilən sanksiyalar bu avadanlıqlardan istifadəni qadağan edəcək. Son dönəm Türkiyə özü bu optik sistemi istehsal etsə də, digər elektronik sistemlərdən qadağa bu sövdələşməni mümkünsüz edəcək".

İsmayıl

Vətəndaşlar şəxsi kabinet vasitəsi ilə sərfiyyatı izləyə biləcək

Kommunal xidmətlərin vahid informasiya sisteminin yaradılması müsbət addımdır

"Azəriqaz", "Azərişıq" və "Azərsu" vahid elektron platformada birləşdiriləcək. Prezident İlham Əliyev bir neçə gün öncə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı təsdiq edib.

Sənəddə qeyd olunan dövrdə müxtəlif istiqamətlərdə çoxsaylı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Onlardan biri də "kommunal xidmətlərin vahid informasiya sistemi"nin yaradılmasıdır. Bu sistem kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanıldığı və emal edildiyi informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, monitorinqlərin və analitik təhlillərin aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edir. İstehlakçıların bütün kommunal xidmətlər üzrə onlara aid məlumatları vahid şəxsi kabinet üzərindən idarə etmələrinə imkan yaradır. Adı çəkilən Strategiyaya görə bu sistem 2022-2023-də başa çatdırılmalıdır.

Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüzün sözlərinə görə, uzun müddətdən bəri gözlənilən, müzakirəsi aparılan layihənin nəhayət ki, gerçəkləşmək üzrə olması təqdirəlayiq haldır: "Bundan xeyli öncə qəbul edilən bir çox sənədlərdə də ASAN-a tapşırılmışdı ki, adı çəkilən sistemi formalaşdırsın.

Lakin müxtəlif səbəblərdən, istisna etmirəm ki, həm də müəyyən maraqlı tərəflərin müqaviməti ucbatından, oflayn formada "ASAN Kommunal" yaratmaq mümkün olsa da, vahid elektron platformanı reallaşdırmaq indiyədək mümkün olmayıb".

Kommunal xidmətlərin vahid informasiya sisteminin əhəmiyyətinə toxunan O.Gündüz deyib ki, vətəndaşlar bir şəxsi kabinet vasitəsilə onlayn olaraq sistemdə bütün kommunal xidmətlər üzrə məlumatlarına nəzarət edir, hər ay üzrə sərfiyyatı izləyir, sayğacdakı məlumatla müqayisə edir: "Sistem ancaq ağıllı sayğacların tətbiqini nəzərdə tutur. Ağıllı sayğacda isə nəzarətçilərə ehtiyac olmur, sayğac məlumatları özü oxuyur, özü mərkəzə ötürür. Məlumatın ötürülməsi müxtəlif şəbəkələr, mobil şəbəkə və ya internet üzərindən ola bilər. Ötürülmüş məlumatlar əsasında vahid prinsiplər üzrə billing sistemində sərfiyyat üzrə avtomatik hesablamalar aparılır və vahid mərkəzə ötürülür.

Hər üç kommunal xidmətin *(işıq, su və qaz sərfiyyatı ilə bağlı)* məlumatları vahid bir mərkəzə yönəlir, burada vətəndaşın şəxsi kabineti formalaşır.

Ağıllı sayğaclar şəbəkədə, sistemdə baş verən nasazlıqlar haqqında məlumatları da qeyd edə və ötürə bilir. Tarif dəyişikliyi avtomatik olaraq həyata keçirilir. Hansı ki əvvəllər kommunal qurumlardan biri bu məqsədlə "WhatsApp"la sayğacların fotosunu tələb edirdi".



Ekspert deyib ki, xidmətin verilməsi ilə bağlı distant formada məhdudiyyətlər tətbiq etmək mümkündür. Xidmətin verilməsində dayanma olarsa dərhal məlumat ötürülür. Qeyri-qanuni müdaxiləyə dərhal reaksiya verə bilir və s: "Ümid edirəm ki, "Azəriqaz", "Azərişıq" və "Azərsu" qurumlarını vahid elektron platformada birləşdirməyə cavabdeh olan ASAN və Energetika Nazirliyi qeyd olunan müddətdə layihəni başa çatdıra biləcəklər. Formalaşan elektron platforma üzərində, məlumatların toplanması və emalı üzərində, billing sistemləri üzərində, sayğac və xidmətin keyfiyyətinin ölçülməsi üzərində ictimai nəzarət imkanları da yaradılacaq. Yeri gəlmişkən, Strategiyadan görmək olur ki, ölkədə rəqəmsal transformasiya ilə bağlı indiyədək icrası mümkün olmayan bir çox digər layihələrin reallaşması, uzun illər bu sektorla bağlı qəbulu mümkün olmayan qanunların və konsepsiyaların təsdiqlənməsi də adıçəkilən sənəddə nəzərdə tutulub. Düşünürəm ki, Strategiyada müxtəlif istiqamətlərdə rəqəmsal transformasiyaya önəm verilməsi, bütün istiqamətlərdə rəqəmsal və innovativ tədbirlərin nəzərdə tutulması kifayət qədər əhəmiyyətlidir". Göründüyü kimi, texnologiyaların inkişafı bütün sahələrdə olduğu kimi, kommunal təchizat sahəsində də yeni imkanlar yaradır, bu sahələrdəki idarəetmənin effektivliyini artırır, itkiləri azaldır, operativliyi çoxaldır. Azərbaycan əhalisinin vacib kommunal xidmətlərlə fasiləsiz və keyfiyyətli təminatı üçün müasir texnologiyalardan istifadə edilməsinə çalışılır. Bunun nəticəsində tezliklə bu sahədəki problemlərin tam aradan qalxacağına şübhə qalmır.

Şəymən

ABŞ Rusiyanı tamamilə dünyadan təcrid etməyə çalışır

Senatın qəbul etdiyi qətnamə Avropa ölkələri üçün siyasi təzyiq xarakteri daşıyacaq

ABŞ Senatı Çeçenistan, Gürcüstan, Suriya və Ukraynada baş verənlərə görə Rusiyanı terroru maliyyələşdirən dövlət kimi tanımağa çağıran qətnamə qəbul edib. Sənəddə İkinci Çeçenistan müharibəsində Rusiyanın terror aktlarına əl atdığı, o cümlədən, Suriya və Donbasda analoji hallara yol verdiyi qeyd olunub: "Rusiya Prezidenti Vladimir Putinin göstərişi ilə atılan addımlar terror aktlarına sponsorluq etmək kimi qəbul olunur".

Qətnamə ABŞ dövlət katibini Rusiyanı terroru dəstəkləyən dövlətlər siyahısına daxil etməyə çağırır. Lakin əlavə edilir ki, "bu qətnamə hərbi güc tətbiq etməyə, yaxud ABŞ Silahlı Qüvvələrinin müdaxilə etməsinə icazə kimi şərh edilməməlidir". Dövlət katibi Entoni Blinken bildirib ki, ABŞ Rusiyanın Ukraynadakı addımlarını "terrorçuluğun dövlət sponsoru" meyarlarına uyğunluğunu nəzərdən keçirir. Lakin etiraf edilir ki, Rusiyaya belə bir statusun verilməsi onun üçün praktiki baxımdan çox az şeyi dəyişdirəcək.

Politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, ABŞ və Qərb Rusiyanın dünyadan tamamilə təcrid edilməsinə çalışır. Analitikə görə, Senatın "Rusiyanın terroru maliyyələşdirən dövlət kimi tanınması" qətnaməsi də bu məqsədə xidmət edən addımlardan biridir: "Bu qətnamənin reallığı əks etdirib-etdirməməsi əslində, ABŞ üçün hazırda o qədər də böyük əhəmiyyət daşımır. Senat sadəcə, bu qətnaməni arqumentləşdirmək üçün vaxtilə Çeçenistan, Gürcüstan və Suriyada, eləcə də indi Ukraynada baş verən hadisələri örnək göstərir. Halbuki, ABŞ vaxtilə Çeçenistan, Gürcüstan və Suriyada baş verənlərə elə də ciddi reaksiya verməyib. Ancaq indi gözlənilmədən həmin hadisələri xatırlamağı vacib hesab ediblər. Təbii ki, ABŞ senatorları Rusiyanı terroru maliyyələşdirən dövlət elan etmək üçün başqa arqumentlər də tapa bilərlər. Ancaq onu da nəzərə almaq lazımdır ki, ABŞ-ın özü də bu məsələdə Rusiyadan heç də "təmiz" deyil. Buna əmin olmaq üçün ABŞ-ın Türkiyəyə qarşı terror fəaliyyətində olan PKK/PYD terror təşkilatına himayədarlıq etməsini xatırlamaq tamamilə yetərlidir. ABŞ PKK/PYD terror təşkilatına təlimlər keçir, silah-sursat, hərbi texnika verir, hətta müxtəlif bəhanələr altında maliyyə yardımı da ayırır. Türkiyənin buna etirazlarına baxmayaraq, bu proses hələ də davam edir".

Ekspertin sözlərinə görə, bu məsələdə ABŞ və Rusiya arasında elə də ciddi fərqlər yoxdur: "Ağ Ev bu qətnamə ilə Rusiyanı tamamilə küncə sıxışdırmaq məqsədi güdür. Belə anlaşılır ki, ABŞ Rusiyanı tamamilə öz sərhədləri içərisinə həbs etmək niyyətindədir. Dövlət Departamenti Senatın qətnaməsinə müsbət reaksiya verərsə, bu, Rusiya üçün beynəlxalq məkanda bəzi şeylərin dəyişməsinə yol açа bilər. Bu halda, ilk növbədə ABŞ Rusiya ilə gələcəkdə beynəlxalq məsələlərin müzakirəsindən yayınmalı olacaq. Əgər "Rusiya terroru maliyyələşdirən dövlətdirsə", onda Kremllə dünyanın siyasi problemlərini müzakirə etmək məntiqsiz xarakter daşıyacaq. Bütün bunlar böyük ehtimalla ABŞ-ın Rusiyanı siyasi, hətta iqtisadi-ticari cəhətdən dünyadan tam təcrid edilməsi strategiyasına hesablanıb. Çünki əgər, ABŞ "terroru maliyyələşdirməsi" ilə bağlı arqumentlə Rusiya ilə əlaqələrini dondurarsa, bu, digər Qərb dövlətləri üçün də örnək rolunu oynaya bilər. Hər halda, Ağ Evin bu addımı Qərb ölkələri üçün siyasi təzyiq xarakteri daşımış olacaq. Hazırda, Almaniya, Fransa, İtaliya və Macarıstan kimi bəzi Qərb ölkələri hələ də Rusiya ilə açıq və gizli münasibətlərini qoruyub, saxlayırlar".

E.Xalidbəyli qeyd edib ki, ABŞ-ın bu məsələdə nə qədər səmimi olduğu da kifayət qədər ciddi suallar doğurur: "Bir müddət öncə ABŞ Rusiya neftini Çinə və digər ölkələrə daşıyan tankerləri sığortalayan şirkətlərə sanksiya tətbiq olunması qərarı verib. Bunu Rusiyadan neft idxal edən Çinin Ukrayna savaşında Kremli dəstəkləməsi və maliyyələşdirməsi kimi arqumentləşdirib. Halbuki, Avropa Birliyi ölkələri hələ də Rusiyadan enerji resursları idxal edirlər və bu ticarət dövriyyəsi günlük Rusiyaya 950 milyon dollar qazandırır. Yəni Avropa Birliyi Ukrayna savaşında Rusiyanı Çindən daha çox maliyyələşdirir. Bütün bunlar onu göstərir ki, ABŞ hazırda Rusiyanı dünyadan təcrid etmək, siyasi-iqtisadi cəhətdən tamamilə blokada vəziyyətinə salmaq məqsədi güdür. Bu niyyətinə hansı səviyyədə nail olacağı isə yəqin ki, ən yaxın vaxtlarda aydınlaşmağa başlayacaq".

İsmayıl Qocayev

"AMEA qalır, lakin xeyli kiçilir"

Hamlet İsaxanlı: "Bu qurumda islahatlar həyata keçiriləcək"

"Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ləğv olunmayıb. Bu qurum qalır, amma kiçilir və dəyişir".

Bu fikirləri "Şərq"ə təhsil sahəsindəki son islahatları dəyərləndirən "Xəzər" Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı söyləyib. O qeyd edib ki, təbiət elmləri və dəqiq elmlər üzrə olan bütün institutlar Təhsil Nazirliyinə verilir: "Bu nazirliyin də adı Elm və Təhsil Nazirliyi olaraq dəyişdirilir. Dünyada da bu proses eynidir. Keçmiş Sovet İttifaqında, Ukraynada, Gürcüstanda və Qazaxıstanda da bu nazirlik Elm və Təhsil Nazirliyi adlanır. Bu, görünməmiş bir şey deyil. Avropa ölkələrində də - Almaniyada, Fransada və başqa ölkələrdə də eyni vəziyyət mövcuddur. Ona görə də buna uyğun adlandırılıb".

Professor əlavə edib ki, Ədəbiyyat, Tarix, Fəlsəfə, sahələrə aid institutlar AMEA-nın adı altında saxlanılır: "Yəni AMEA qalır, lakin xeyli kiçilir. Eyni zamanda, bu qurumda islahatlar həyata keçiriləcək. O cümlədən AMEA rəhbərliyinin təklifləri gözlənilir. Təbii ki, keyfiyyəti artırmaq üçün kiçilmə məsələləri olacaq.

Elm və təhsil bir-birinə bağlıdırlar. Birini o birindən ayırmaq olmaz. Çünki elm olmalıdır ki, orada yüksək təhsil olsun. Elmin də yaranma yolu təhsildən keçir. Ona görə onlar bir yerdə olmalıdır.

Amma bir yerdə olmaq nə deməkdir? Bu sualın cavabı addım-addım aydınlaşacaq. Düşünürəm ki, sonrakı məqamlarda elmi-tədqiqat institutları dəyişərək müəyyən elmi tədqiqata üstünlük verən universitetlərə birləşdiriləcək. Bu variant ağlabatan görünür".

Çimnaz Şahlar

İslahat başladı

AMEA-nın fəaliyyəti dövrün tələblərinə uyğunlaşdırılacaq

Dünən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclası keçirilib. İclasda AMEA-nın prezidenti vəzifəsini icra edən Arif Həşimov, Rəyasət Heyətinin üzvləri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva iştirak edib. İclasda Prezident İlham Əliyevin elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı ötən gün imzaladığı fərmandan irəli gələn məsələlərin müzakirə olunub.

AMEA-nın prezidenti vəzifəsini icra edən, akademik Arif Həşimov deyib ki, seçkilər 3 aydan sonra keçirilə bilər. Onun sözlərinə görə, Prezidentin müvafiq Fərmanına əsasən, 3 ay müddətində AMEA-nın nizamnaməsi hazırlanmalıdır və nizamnamə hazırlandıqdan sonra buna uyğun olaraq AMEA-da prezident seçkiləri keçiriləcək. Akademik xatırladıb ki, Akademiya yarandığı gündən bəri prezident Ümumi Yığıncaqda seçilir: "İclasda Nizamnamə komissiyasına görüləcək işlər barədə tapşırıqlar verildi. Nizamnamə hazırlananda akademiyanın tarixi ənənələri yəqin ki, olduğu kimi saxlanılacaq. Prezidentin son Fərmanı elm və ali təhsilin inkişafına böyük xidmət göstərəcək.

"Son dəyişiklik AMEA-nın işinin tənzimlənməsinə xidmət edəcək"

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli bir sıra elmi müəssisə və təşkilatların Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsinə münasibət bildirib. O deyib ki, bu, AMEA-nın elm və istehsalat qurumlarının işinin tənzimlənməsinə xidmət edəcək: "Bugünkü iclasda AMEA-da prezident seçkiləri ilə bağlı qərar qəbul edilməyib. İnstitutların bir çoxu Elm və Təhsil Nazirliyinin tabeliyinə verildiyi üçün onların əksəriyyətinin Rəyasət Heyəti aparatının tərkibində qalması mənasızdır". O qeyd edib ki, əlbəttə ki, Rəyasət Heyəti aparatının tərkibində müəyyən qədər işçi qalacaq.

AMEA-nın gələcək fəaliyyəti necə olacaq?

Vitse-prezident jurnalistlərə açıqlamasında deyib ki, Akademiyanın tərkibində olan institutlar Elm və Təhsil Nazirliyinə verildiyinə görə onların idarə olunmasında cavabdehlik daha çox nazirliyin üzərinə düşür: "Onlara elmi-metodiki köməklik göstərmək isə Akademiyanın fəaliyyət istiqamətləri sırasındadır. Xüsusən elmi istiqamətlərin, proritetlərin müəyyən olunması, istiqamətlənidirilməsi AMEA tərəfindən yerinə yetiriləcək. Eyni zamanda AMEA bundan sonrakı fəaliyyəti dövründə elm sahəsində qiymətləndirmə, ekspertiza məsələlərini ölkə üzrə həyata keçirmək səlahiyyətlərini də qoruyub saxlayıb. AMEA bununla bağlı işləri təkcə öz tabeliyində olan qurumlarda deyil, digər institutlarda da həyata keçirmək səlahiyyətinə malikdir".

"Prezidentin fərmanı optimal addımdır. Bu qərar tam dəstəklənir və icrası istiqamətində akademiyanın Rəyasət Heyəti bütün gücünü sərf edəcək"

"Yaxın istiqamətlərin birləşdirilməsi indiki dövrün reallığıdır"

İ.Həbibbəyli bildirib ki, bir çox ölkələrdə Elm və Təhsil Nazirliyi və yaxud Elm və Təhsil Komitəsi, bəzi ölkələrdə Elm, Təhsil və İdman Nazirliyi, digər ölkələrdə isə Elm,Təhsil, İnnovasiyalar, İdman və Gənclər Nazirliyi kimi formatlar mövcuddur: "Hətta inkişaf etmiş ölkələrdə bir nazirliyin statusunda və ya əhatə dairəsində yaxın istiqamətlərin birləşdirilməsi indiki dövrün reallığıdır. Çünki artıq isbat olunub ki, bir-birinə yaxın olan sahələrin qarşılıqlı inteqrasiyasına nail olmadan real elmi nəticə əldə etmək mümkün deyil. Prezident İlham Əliyevin imzaladığı fərmanla Elm və Təhsil Nazirliyinin yaradılması dünya təcrübəsində özünü təsdiq etmiş son illərin mühüm reallıqlarından biridir. Bundan əlavə, ölkəmizdə elm və təhsilin qarşılıqlı şəkildə inteqrasiya olunmasına şərait yaradacaq. Nəticə etibarilə, Azərbaycanda elm və təhsil daha da inkişaf edəcək".

"Olana qane olmaq yox, daha da irəliyə getmək, inkişaf etmək lazımdır"

AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev deyib ki, həyat bir yerdə dayanmadığı kimi, elm də bir yerdə dayanmır: "Yeni çağırışlar, yeni problemlər ortaya çıxır. Son vaxtlar Respublikanın həyatında Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının 2022-2026-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamı elmin də qarşısında, o cümlədən AMEA-nın da qarşısında yeni vəzifələr qoyur. Fərmanla əlaqədar olaraq AMEA bütün gücünü sərf edəcək ki, elmin irəliyə daha böyük addımlarla getməsini təmin etsin. AMEA-nın uğurları az deyil. Bunu etiraf etmək lazımdır. Amma bir yerdə dayanmaq özü geriyə getməyə bərabərdir. Ona görə biz hesab edirik ki, olana qane olmaq yox, daha da irəliyə getmək, inkişaf etmək lazımdır. Bu baxımdan ali təhsillə elmin birgə inteqrasiyası, bunun real zəmin əsasında olması ümumiyyətlə, Azərbaycanda elmin də, ali təhsilin də inkişafına böyük xidmət göstərəcək. Çünki elmin və ali təhsilin cəmiyyətin inkişafında qoşa qanad olması artıq heç kimdə şübhə yaratmır. Amerika Senatı bu qərara hələ 1960-cı illərdə gəlmişdi. Doğrudan da həyat göstərir ki, elm və ali təhsilin birgə inteqrasiyası, onların yeni səviyyədə qurulması cəmiyyətin inkişafında böyük rol oynayacaq. Mən əminəm ki, AMEA-nın alimləri, elmi işçiləri bütün güclərini sərf edəcəklər ki, bu fərman yerinə yetirilsin".

"AMEA-nın yeni prioritetləri müəyyənləşdiriləcək"

Dilqəm Tağıyev vurğulayıb ki, strukturda istənilən dəyişiklik ümumi məqsədə - optimallaşmaya və səmərəliliyin artırılmasına xidmət edəcək. Onun sözlərinə görə, bu məqsədlə artıq Rəyasət Heyətində müəyyən addımlar atılıb, bir çox institutlarda attestasiyalar keçirilib: "Bu işlər davam etdiriləcək. Strukturun daha optimal vəziyyətə gəlməsi üçün var gücümüzü sərf edəcəyik". Akademik AMEA-nın fəaliyyətində baş verəcək dəyişikliklərdən də söz açıb: "Bir daha AMEA-nın elmi istiqamətlərinə baxılacaq, yeni prioritetlər müəyyənləşdiriləcək, adambaşına düşən elmi məhsuldarlıq yüksəldiləcək. Ali təhsil müəssisələri ilə inteqrasiya daha da gücləndiriləcək və alimlərin ali təhsil prosesində iştirakı daha da genişlənəcək. AMEA-ya gələn gənc mütəxəssislər daha peşəkar mütəxəssislər olacaq. Bu istiqamətdə artıq müəyyən işlərə başlanılıb və bu işlər davam etdiriləcək".

"Prezidentin fərmanını tam dəstəkləyirik"

Akademiyanın digər vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev bildirib ki, iclasda Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş fərman və fərmandan irəli gələn vəzifələr ətraflı müzakirə olunub, bundan sonra görüləcək işlər barədə fikir mübadiləsi aparılıb: "Ümumi əhval-ruhiyyə ondan ibarətdir ki, Prezidentin fərmanı optimal addımdır. Bu qərar tam dəstəklənir və icrası istiqamətində akademiyanın Rəyasət Heyəti bütün gücünü sərf edəcək. Fərmandan sonrakı vəziyyəti, təşkilati strukturu, qarşıda duracaq vəzifələr və ümumi statusun müəyyənləşdirilməsi, möhkəmləndirilməsi, mövcud reallıqlara uyğunlaşdırılması əsas məsələlərdəndir".

"Akademiyanın fəaliyyəti dövrümüzün tələblərinə uyğunlaşdırılacaq"

Rasim Əliquliyev qeyd edib ki, növbəti mərhələdə Elm və Təhsil Nazirliyinin üzərinə düşən vəzifələr müəyyən olunacaq. Bundan əlavə, Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturunun, Aparatın strukturunun, Rəyasət Heyətinin tərkibinin hüquqi təşkilati məsələləri müəyyənləşdiriləcək, Nizamnamə formasına gətiriləcək və yaxın zamanda Akademiyanın ümumi yığıncağında qəbul olunacaq. Daha sonra Nizamnamənin tələblərinə və digər normativ tələblərdən irəli gəlməklə Akademiyanın fəaliyyəti dövrümüzün tələblərinə uyğunlaşdırılacaq: "Yeniləşən, inkişaf edən, yüksək texnologiyalar cəmiyyətinə çevrilən Azərbaycan elminə həm ölkə daxilində, həm xaricdə dəstək vermək lazımdır. Mövcud intellektual insan resurslarını nəzərə almaq şərtilə Azərbaycan elminin qarşısında duran vəzifələr müəyyənləşməlidir. Azərbaycan Milli Elmlər Akademiyası yenilənən, təkmilləşən akademiya olaraq Elm və Təhsil Nazirliyi, eləcə də müvafiq qurumlarla sıx əməkdaşlıq etməlidir".

"AMEA-nın bütün bölmələri saxlanılacaq"

Rasim Əliquliyev əlavə edib ki, AMEA-nın ictimai və humanitar elmlərlə məşğul olan bölmələrinin fəaliyyəti ilə yanaşı, digər bölmələrinin də mövcudluğu yerindədir: "Onlar da fəaliyyət göstərəcək. Hər bir elmi bölmə ölkə üzrə aidiyyəti elmi qurumlarla, ali təhsil müəssisələri və dövlət qurumları ilə müvafiq işlər aparacaq. Bu qurumlar qarşısında, eyni zamanda, burada Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən qurumlardan da söhbət gedir, yeni elmi vəzifələrin müəyyənləşdirilməsi, elmi potensiala uyğun olaraq işin təşkil olunması və əldə edilən nəticənin qiymətləndirilməsi, ölkədə elm üzrə monitorinqlərin aparılması kimi yeni elmi vəzifələrin icrası duracaq". Akademik vurğulayıb ki, Elm və Təhsil Nazirliyinin inzibati idarəetmə, maliyyələşdirmə, maddi-texniki bazanın gücləndirilməsi və digər işləri həyata keçirəcək: "Amma həmin institutların elmi fəaliyyəti AMEA tərəfindən monitorinq ediləcək. Bir sözlə, AMEA Elm və Təhsil Nazirliyi ilə bu istiqamətdə sıx əməkdaşlıq edəcək".

"AMEA-da inzibati olaraq kimlərinsə ixtisarından söhbət getmir"

Akademik bəyan edib ki, cənab Prezidentin imzaladığı Fərmanda konkret vəzifələr müəyyənləşdirilib. Onun sözlərinə görə, mövcud intellektual potensialın artırılması, ünvansız problemlərlə məşğul olunmaması, elmdə müəyyən islahatların aparılması zamanın tələbidir: "AMEA öz mövcudluğunu qoruyur. Bugünkü iclasda AMEA-ya müvafiq tapşırıqlar verildi ki, təcili olaraq nizamnamənin yeni layihəsi işlənilsin, AMEA-nın və Rəyasət Heyəti aparatının yeni strukturu ortaya qoyulsun. AMEA yeni şəraitə uyğunlaşır". O qeyd edib ki, AMEA Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edəcək: "Aparılan islahatlar elmlə təhsilin inteqrasiyasına xüsusi dəstək verəcək. AMEA alimlərinin tədris prosesinə daha yaxından cəlb olunması, yeni dərsliklərin hazırlanması, yeni biliklərin dərs kitablarına gətirilməsi təhsilin inkişafına da təsir edəcək". R.Əliquliyev vurğulayıb ki, AMEA-da sadəcə olaraq təşkilati- idarəetmə prinsipləri dəyişir: "Strukturun dəyişməsi fonunda müəyyən dəyişikliklər təbii ki, gözlənilir. Amma konkret olaraq inzibati olaraq kimlərinsə ixtisarından söhbət getmir".

İsmayıl

"Elmə yanaşma dəyişməli, yeni sistem qurulmalıdır"

Qulu Məhərrəmli: "İlkin addımlar atıldıqdan sonra bu mənzərə bizə tam aydın olacaq"

Prezident İlham Əliyevin ötən gün imzaladığı fərmana əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə çevrildi.

Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər nazirliyə həvalə edilib. Nazirliyin yanında isə Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi yaradılıb.

Məlumat üçün bildirək ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) büdcədən maliyyələşdirilən bir neçə elmi müəssisələri Elm v? T?hsil Nazirliyinin tabeliyin? verilib.

AMEA-nın durğun fəaliyyəti ilə bağlı uzun müddətdir səslənən şikayətlərin fonunda aparılan bu islahat bir çoxları tərəfindən pozitiv hadisə kimi qarşılanıb. Bu baxımdan Elm və Təhsil Nazirliyinə və onun həyata keçirəcəyi işlərə ümid böyükdür.

Tanınmış jurnalist, media eksperti, professor Qulu Məhərrəmli yaradılan yeni nazirliyi və AMEA-nın bir qurum kimi ləğvini "Şərq"ə dəyərləndirib. Professor bildirib ki, Elm və Təhsil Nazirliyinin yaranması çox müsbət hadisədir: "Burada söhbət iki mürəkkəb sahənin eyni kontekstdə inkişaf etdirilməsindən gedir. Bizdə təhsilin və elmin ayrılıqda problemləri var. Amma dinamik təhsil sistemindən fərqli olaraq, elm sahəsində, xüsusilə müstəqillik illərində ciddi durğunluq müşahidə olunur. Müxtəlif səviyyələrdə tənqid olunmasına baxmayaraq, bu sahədə ciddi irəliləyiş yoxdur.

Düşünürəm ki, nazirliyin yaradılmasında əsas məqsədlərdən biri Azərbaycanda elm sahəsini inkişaf etdirmək, onun praktiki nəticələrini istehsalata tətbiq etmək, universitet elmi ilə akademik elmi bir arada görmək və onun problemlərinə kompleks yanaşmaqdır.

AMEA-nın sistemində təxminən 12 mindən çox insan çalışır.

Tərkibində müxtəlif elmi-tədqiqat institutları var. Əlbəttə, bunların hər birinə eyni gözlə baxmaq olmaz. Onların arasında sözün həqiqi mənasında elmlə məşğul olan, problemlərə ciddi şəkildə yanaşan qurumlar var. Lakin ümumiyyətlə nə etdiyi bilinməyən elmi tədqiqat institutları da mövcuddur".

Q.Məhərrəmli hesab edir ki, dinamik prosesin başlayacağını gözləmək lazımdır: "Elmə yanaşma dəyişməli, yeni sistem qurulmalıdır. Yalnız forma dəyişikliyi olsa, əlbəttə, əvvəlki vəziyyət qalmağa davam edəcək. Hesab edirəm ki, perspektivi nəzərə alan, dünya elminin trendlərinə uyğunlaşan bir sistem qurulacaq və alışdığımız durğun elmi mənzərədən xilas ola biləcəyik. İlkin addımlar atıldıqdan sonra bu mənzərə bizə tam aydın olacaq. Hər halda ümid edirik ki, bu həm Azərbaycan təhsili üçün, həm də Azərbaycan elmi üçün inkişafa impuls verəcək".

Çimnaz Şahlar

Son günlər regionda baş verən iqtisadi proseslər, Rusiya-Ukrayna müharibəsi Azərbaycanın yaxın qonşuları və bəzi əsas ticarət tərəfdaşları olan ölkələrdə yerli valyutaların dollar qarşısında ucuzlaşması manat üçün təzyiq ehtimalı yaradır.

Manata hələ ki, təhlükə yoxdur

Əkrəm Həsənov: "Əgər dünyadakı vəziyyət dəyişsə, hər şey ola bilər"

Türk lirəsi və rus rublunun kəskin ucuzlaşması Azərbaycanda da devalvasiya riski ilə bağlı müzakirələri gücləndirib. Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Taleh Kazımov bildirib ki, ilin sonuna kimi manatın məzənnəsində heç bir dəyişiklik gözlənilmir: "Hazırda tədiyyə balansının profisitini, valyuta hərraclarında tələbin kəskin azalmasını nəzərə alsaq, ilin sonuna kimi manatın məzənnəsinin dəyişməsi ilə bağlı heç bir gözləntimiz yoxdur".

Manatın devalvasiyanın çox az ehtimalı olduğunu deyən bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov "Şərq"ə bildirib ki, neftin qiymətinin kəskin yüksəlişi Azərbaycanın valyuta gəlirlərini artırır: "Təbii ki, devalvasiya ehtimalı hər zaman var. Lakin dünyada cərəyan edən geosiyasi vəziyyət və müharibə neftin qiymətinin kəskin artmasına səbəb olub. Bu qiymət artımı Azərbaycanın gəlirlərini artırır. Bu mənada manat üçün təhlükə yoxdur. Bunu Elman Rüstəmovun getməsi və Taleh Kazımovun məhz indi vəzifəyə təyin olunması da göstərir. Əgər dünyadakı vəziyyət dəyişsə, hər şey ola bilər. Amma indiki vəziyyətdə təhlükə gözlənilən deyil".

Nihat Müzəffər

Hər birimiz ayıq-sayıq olmalıyıq

Millət vəkili: "5-ci kolonun nəzarətində olan saytlar cəmiyyətdə panika yaradırlar"

"Reket jurnalistikası cinayətkar fəaliyyətdir". Bu barədə Azərbaycanın Baş prokuroru Kamran Əliyev bildirib. O qeyd edib ki, bəzən sosial media istifadəçiləri, yaxud mətbu orqanların əməkdaşları özlərini tam hazırlıqlı "hüquqşünas" kimi hesab edirlər, hüquqi məsələlərlə bağlı qəti fikirlər yürüdürlər. Baş prokurorun sözlərinə görə, bu, yolverilməzdir.

Çünki hüquq elmi kifayət qədər mürəkkəb elmdir: "Hüquqi məsələlər, sübutlar, sübutların təhlili, qiymətləndirilməsi ilə bağlı müstəntiqlər, prokurorlar, hakimlər tərəfindən kifayət qədər çoxşaxəli dəyərləndirmə həyata keçirilir. İncəlikləri, sübutları bilmədən, o cümlədən şərti olaraq "Tərtər işi" kimi işlərlə bağlı bəzən bu cür fikirlərin yürüdülməsi yolverilməzdir. Hesab edirəm ki, bu sahədə müəyyən tədbirlər planı hazırlamalıyıq və onu jurnalistlərlə, media orqanları ilə birlikdə həyata keçirməliyik". Kamran Əliyev vurğulayıb ki, "reket jurnalistikası" yalnız jurnalistikaya aid deyil: "Reket jurnalistikası da şərti termindir. Əslində, burada söhbət hədə-qorxu ilə tələb etmədən gedir. Bəzən jurnalist fəaliyyətindən istifadə etməklə, yaxud da jurnalistlərin öz fəaliyyəti zamanı bu hallar baş verir. Bu, tək jurnalistlərlə bağlı deyil, bəzən sosial media istifadəçiləri tərəfindən də bu kimi hallara yol verilir. Konkret olaraq qanunda bunun adı hədə-qorxu ilə tələb etmə adlanır. Belə hallar yolverilməzdir. Artıq bu, jurnalistika fəaliyyəti ilə heç bir əlaqəsi olmayan sırf cinayətkar bir fəaliyyətdir. Bu kimi faktları aşkarlayıb, şəxsləri məsuliyyətə cəlb edirik".

Baş prokurorun diqqət çəkdiyi məqamı "Şərq"ə dəyərləndirən Milli Məclisin üzvü, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov deyib ki, Azərbaycan jurnalistikası böyük, keşməkeşli yol keçib. Parlament üzvü bildirib ki, müstəqilliyimiz yenicə bərpa olunduğu illərdə bir çox "reket jurnalistlər" müxtəlif vasitələrlə insanlara şər-böhtan ataraq onlardan öz şəxsi mənafeləri üçün istifadə edirdilər: "Azərbaycan hüquqi-demokratik dövlət kimi inkişaf yolunu qət etdikcə, bu istiqamətdə də mühüm tədbirlər görüldü. Son illərdə "Media haqqında" qanunun qəbul olunmasını, o cümlədən Media İnkişaf Agentliyinin yaradılmasını və digər çoxsaylı addımları göstərmək olar. Çox təəssüf ki, hələ də "reket jurnalistika" var və onlar öz qaragüruh fəaliyyəti ilə çalışırlar ki, ayrı-ayrı şəxsləri şantaj etsinlər. Ona görə də durmadan şər-böhtan kampaniyası aparırlar. Bəzi saytlarda, həmçinin sosial şəbəkələrdə də bu, öz əksini tapır. Düşünürəm ki, bunun arxasında böyük ölçüdə anti-Azərbaycan qüvvələrin fəaliyyəti durur. Xarici ölkələrdə oturaraq, özlərini "bloqer" adlandıranların, ermənipərəst qüvvələrə, anti-Azərbaycan dairələrə xidmət göstərənlərin, ölkədəki 5-ci kolonun nəzarətində olan bəzi saytların, "hüquqşünasların" insanları yanlış yönə sövq etməsi, təxribat xarakterli xəbərlərlə cəmiyyətdə panika yaratması yolverilməzdir. Belə şəxslər hüquq qarşısında mütləq cavab verməlidir. Azərbaycan Ordusuna, bütövlükdə dövlətçiliyimizə qarşı şər-böhtan kampaniyasının aparılması, ayrı-ayrı ictimai şəxslərin qaralanması, şəhid ailələrindən və qazilərdən çirkin məqsədlər üçün istifadə cəhdləri olduqca təhlükəli tendensiyadır. Son günlər ordumuz haqqında yanlış dezinformasiyaların yayılması da "reket jurnalistika"nın tərkib hissəsidir".

Deputat əminliklə vurğulayıb ki, bu cəhdlərin arxasında anti-Azərbaycan dairələrin nökərinə çevrilmiş radikal qüvvələr dayanır: "Xaricdə öyrədilərək daxilimizə göndərilmiş və "ictimai fəal" kimi ortalığa atılmış ünsürlərin, ermənipərəst dairələrin nəzarətində olan şəbəkələrin fəaliyyətinin əsas məqsədi güclü Azərbaycanın qurulması istiqamətində atılan böyük addımları, xalqımızın həmrəyliyini pozmaqdır. Xalq-iqtidar birliyinə yönəlmiş cəhdlərdir. Buna qarşı cəmiyyət olaraq hər birimiz amansız mübarizə aparmalı, ayıq-sayıq olmalıyıq. Digər tərəfdən hüquqi tənzimləmələr olmalı, belə şəxslərə qarşı hüquqi müstəvidə mübarizə aparılmalıdır".

İsmayıl Qocayev

"İfadə azadlığının əngəllənməsinin tərəfdarı deyilik"

Azər Həsrət: "Eyni zamanda elə etməliyik ki, ordumuzla bağlı düşmənin işinə yarayacaq paylaşımlara yer verilməsin"



"Baş Prokurorluğun bəzi media qurumları və sosial şəbəkələrlə bağlı narahatlığını başa düşürük". Bu sözləri "Şərq"ə açıqlamasında media eksperti Azər Həsrət deyib. Jurnalist bildirib ki, bizim ölkəmizdə, xüsusən ordu ilə bağlı məqsədyönlü gözdənsalma kampaniyası aparılır: "Kampaniya sosial media üzərindən aparılır. Arxasında duranları müəyyən etmək çətin olsa da, təəssüflə qeyd etməliyik ki, bəzi adamlar özü belə bilmədən alətə çevrilirlər.

Ona görə də Baş Prokurorluq cəmiyyətə xəbərdarlıq edib ki, ayıq-sayıq olsunlar, bu cür hallarla mübarizədə vətəndaş dəstəyi göstərsinlər. İfadə azadlığının, ələlxüsus media azadlığının hər hansı formada əngəllənməsinin tərəfdarı deyilik. Amma illərdir dediyimiz fikri təkrarlamağa məcburuq. İfadə və media azadlığı bəlli qaydalar çərçivəsində həyata keçirilməlidir. Yəni ifadə azadlığı o demək deyil ki, hər şey haqqında hər cür paylaşım etmək olar. Xüsusən, ordu ilə bağlı paylaşımlarda çox diqqətli olmaq lazımdır. Ordunu gözdən salan, hərbi birləşmələrin yerini göstərən, yaxud hərbi qulluqçuların sayı, texnikası haqqında məlumatları yaymaq olmaz. Bəzən görürük ki, insanlar yolla hərəkət edən hərbi dəstənin fotosunu, videosunu internetdə paylaşırlar. Dəfələrlə deyilib ki, bu, yolverilməzdir. İnsanın özünün də düşüncəsi olmalıdır ki, belə məsələləri yaymaq olmaz. Məhz bu amillərə görə, Baş Prokurorluq xəbərdarlıq etmək məcburiyyətində qalıb. Əlbəttə, hesab edirik ki, məsələnin sadəcə bu müstəvidə həlli uyğun deyil. Yaxşı olar ki, cəmiyyət içində daimi maarifləndirmə işi aparılsın. Televiziya, radio və digər KİV-lər bu işə ciddi töhfə verməlidir. Elə etməliyik ki, həm ifadə azadlığı əngəllənməsin, həm də ordumuzla bağlı düşmənin işinə yarayacaq paylaşımlara yer verilməsin".

İsmayıl Qocayev

ABŞ odla oynayır

Vaşinqtonun davranışı Pekini qəzəbləndirib

Şanxay Əməkdaşlıq Təşkilatının xarici işlər nazirlərinin Özbəkistan paytaxtı Daşkənddə görüşü keçirilib. Toplantıya ilk gələnlərdən biri Rusiya Xarici işlər naziri Sergey Lavrov olub və o, ikili görüşlər keçirib. Lavrovu əvvəlcə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qəbul edib.

Görüşdə iki ölkə arasındakı münasibətlərin hazırkı vəziyyəti müzakirə olunub. Bildirilib ki, iki ölkə arasında ticarət mübadiləsi 32 faiz artıb. Bundan başqa iki ölkə arasında 40 böyük investisiya layihəsinin icrası vurğulanıb. Ayrıca, "Mərkəzi Asiya-Rusiya" formatı və Əfqanıstanla bağlı fikir mübadiləsi aparılıb. Lavrov Daşkənddə çinli həmkarı Van Yi ilə də görüşüb. Bu görüş maraqlı dialoqla başlayıb. Çinli həmkarını "qorxmayın, maskanı çıxara bilərsiniz, dostlar bir-birilərinə inanırlar" cümləsi ilə qarşılayan Lavrov Van Yi ilə beynəlxalq aləmdəki mövcud durumu müzakirə edib. Van Yi Lavrova deyib ki, Şanxay Əməkdaşlıq Təşkilatının güclü struktura çevrilməsinə ehtiyac var. Yi belə bir cümlə işlədib: "Şanxay Əməkdaşlıq Təşkilatı beynəlxalq aləmdə sabitləşdirici amilə çevrilməlidir".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Pekinin bu istəyinin nəyə əsaslandığı bəllidir. Analitikə görə, Tayvan adası ətrafında vəziyyət gərginləşdikcə, Pekinlə Vaşinqton arasında münasibətlər mürəkkəbləşir: "Lavrov Van Yi ilə görüşdüyü saatlarda ABŞ Prezidenti Co Bayden Çin lideri Tsi Sinpinlə telefonla danışıb. Tsi Sinpin Baydenə məsləhət görüb ki, ABŞ odla oynamasın. Bu xəbərdarlıq Vaşinqtonun Çinin özününkü hesab etdiyi Tayvan adasında siyasi və hərbi dəstəyini artırmasıyla bağlıdır. Pekini qəzəbləndirən Vaşinqtonun Çinə Tayvanı ələ keçirməsinə mane olmasıdır. ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Tayvana səfərə hazırlaşması ada ətrafında hərbi vəziyyəti daha da mürəkkəbləşdirib. Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin liderləri sentyabr ayında Özbəkistanın Səmərqənd şəhərində toplaşacaqlar. Bu toplantıya qədər təşkilatın xarici işlər nazirləri liderlərin müzakirə edəcəkləri gündəliyi müəyyənləşdirməlidirlər. Əsas müzakirə mövzularından biri təşkilata yeni üzvlərin qəbuludur. Rusiya təşkilata İranı üzv elətdirməyə çalışır. Çin bunun əleyhinə deyil. Təşkilata üzv olmaq istəyənlər arasında Türkiyə, Azərbaycan və Ermənistan da yer alıb".

İsmayıl

"Alimlər arasında ixtisarlar qətiyyən nəzərdə tutulmur"

Elm və təhsil naziri bir-birini təkrarlayan institutların birləşdirilməsini istisna etməyib

"Elm və Təhsil Nazirliyi elmi qurum deyil". Bunu elm və təhsil naziri Emin Əmrullayev AzTV-nin "Hədəf" verilişində deyib. Nazir bildirib ki, söhbət təhsillə elm arasındakı koordinasiyadan gedir:

"Bu, elmi fəaliyyətin koordinasiyası, daha çox bu işin inzibati idarə edilməsi üçündür. Yeni maliyyələşmə mexanizmlərin tətbiqi nəzərdə tutulur".

Nazir qeyd edib ki, əvvəl təhsillə elm arasında bir-birini təkrarlayan, bir-birini tamamlamayan fəaliyyətlər var idi. Bu addım koordinasiyalılığı təmin edəcək: "Elmlə bağlı suallar, prioritetlər Elmlər Akademiyası tərəfindən müəyyən edilir. Elm, tədris və tədqiqatları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Eyni zamanda, ali təhsil müəssisələrində kadr hazırlığının daha mükəmməl olması üçün tədqiqatların aparılması vacibdir. Ali təhsil müəssisələrində bu mühit bəzən mümkün olub, bəzən mümkün olmayıb. Lakin islahatlardan sonra buna müvəffəq ola biləcəyik".

Emin Əmrullayev söyləyib ki, elə institutlarımız var ki, onların ənənəsi var və tarix boyu çox ciddi suallara cavab tapıblar. Lakin elə müəssisələr ola bilər ki, zaman-zaman optimallaşdırıla bilər. Onun sözlərinə görə, səmərəliliyin artırılması üçün bir-birini təkrarlayan qurumlar varsa, onların fəaliyyətini birləşdirmək də mümkündür:

"Amma hər bir halda bu, belə deyil. İstəyirəm ki, xüsusi vurğulayım. Digər nazirliklərin də tabeliyində elmi-tədqiqat institutları var. Fərqi yoxdur hansı model tətbiq olunacaq. Əsas odur ki, elm inkişaf etsin. Bizim məmur olaraq işimiz odur ki, alimlərimizdən hansı laboratoriyaların lazım olması barədə rəylər alaq. Səmimi deyim ki, kimin kimə tabeliyi elmdə əlavə dəyər yaratmır. Alimi kimsə tabe edəndə o daha yaxşı alim olmur. Onun tədqiqat mühitini yaxşılaşdırmaq lazımdır".

Nazir vurğulayıb ki, təhsildə elmlə ünsiyyət nə qədər çox olarsa, şagirdlərdə elmə maraq artar, elm də gəncləşər.

Emin Əmrullayev deyib ki, Elmlər Akademiyasında yaş faktoru çox qabardılır: "Mən yaş faktorunu çox düşünmürəm. Mənim üçün insanların bacarıqları daha önəmlidir. Lakin varisliyin, davamlılığın təmin edilməsi üçün gənclərin elmə cəlb edilməsi vacibdir".

Emin Əmrullayev deyib ki, alimlər arasında ixtisarlar qətiyyən nəzərdə tutulmur.

O bildirib ki, qarşıya qoyulan məqsəd kimisə işdən çıxarmaq, kimisə yaşına görə diskriminasiya etmək deyil: "Növbəti mərhələyə baxış çox önəmlidir. Uzunmüddətli inkişaf elmsiz mümkün deyil. Geniş şəkildə ixtisarlar və optimallaşdırılmalar yəqin ki, olmayacaq".

Yeni yaradılan agentliklərin hansı istiqamətdə fəaliyyət göstərəcəyinə gəlincə isə nazir qeyd edib ki, bu qurumlar müvafiq təhsil pilləsi üzrə koordinasiyasını həyata keçirəcək.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

"Orta məktəblərdən başlayaraq ali təhsil müəssisələrində də maarifləndirmə işləri aparılmalıdır. Ailələrlə söhbətlər aparılmalı, ağsaqqallar işə cəlb edilməlidir. Bu problemin həlli təkcə bir komitənin, bir qurumun öhdəsinə verilməməlidir, ictimaiyyət olaraq biz hamımız bu işdə iştirak etməliyik".

Əsrlər boyunca qız övladı dünyaya gələn ailələrə "Canın sağ olsun" , "Neyləyək, Allah payıdır" deyə təsəlli vermişik. Toylarda, nişanlarda "yeddi oğul istərəm, bircə dənə qız -gəlin" deyib alqış etmişik. İndi də Azərbaycanda oğlanların sayının qızlardan çox olması ilə bağlı həyəcan təbili çalırıq. Hələ bu harasıdı!? Bir neçə onillik keçsin, arzuolunmaz övlad kimi təqdim edilən qız uşaqlarına həsrət qalacağıq!

Bu cəmiyyətin qız övladı ilə ulduzları niyə barışmır!? Tibbin inkişafından istifadə edən valideynlər ailə modelini özləri təyin etməyə başlayıblar.

Qızı olan oğlan istəyir, oğlu olan da qız. O da hələ baxır ailənin imkanına. Maddi durumu məhdud olan ailələr ilk övladı oğlandırsa, qız övladı barədə heç fikirləşmir də. Bütün bunlar isə Azərbaycanda demoqrafik göstəricilərin dəyişməsinə gətirib çıxarıb və artıq həyəcan təbili çalınır. Qız uşaqlarına qarşı "soyqırım" əməliyyatının nəticəsində isə yaxın 20 ildə oğlanlarla qızlar arasındakı balansın tamamilə pozularaq genefondumuza ciddi zərər dəyəcəyi artıq narahatlıqlara səbəb olub.

Vəziyyətin getdikcə ağırlaşması konkret tədbirlər görülməsi zərurətini ortaya qoyub.

Qeyd edək ki, 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşür. Üstəlik, Azərbaycan dünyaya gələn uşaqların cins nisbətinə görə selektiv aborta üstünlük verən dövlətlər arasında birinci yerdədir.

Azərbaycan mediasında gender həssaslığının artırılması" mövzusunda jurnalistlər üçün keçirilən təlimdə media eksperti Aynur Veysəlovanın sözlərinə görə, əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir: "Belə ki, hazırda Çində bu göstərici 100 - 110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102 - 106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir".

Ekspert bildirib ki, ötən 55 il ərzində Azərbaycanda nəsilvermə əmsalı xeyli azalıb: "Azərbaycanda son onilliklər ərzində nəsilvermədə baş vermiş tənəzzül

Bizi qarşıda gözləyən təhlükə...

Azərbaycanda valideynləri cinsi ayrı-seçkilik fikrindən daşındırmağın yolları tapılmalıdır

və dölün cinsinin müəyyən edilməsinə imkan yaradan ultrasəs müayinəsindən geniş istifadə nəticəsində ölkədə oğlan uşaqlarına verilən üstünlük selektiv abortlar vasitəsilə reallaşdırılır. Bu isə doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olur. BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə, qızlara dəyər vermək lazımdır. Ədalətli cəmiyyət naminə qızlar üçün bərabər imkanlar yaradılmalıdır".

Açıqlanan statistik nəticələri təhlükəli tendensiya hesab edən ekspertlərin fikrincə, qız uşaqlarının dünyaya gəlməsinin qarşısını almaq üçün təcili qanun qəbul edilməlidir.

"İnsan Hüquqları üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri, hüquqşünas İradə Cavadova isə selektiv abort probleminin qanun gücünə, sərt qadağalar vasitəsilə tam həllinin mümkün olmayacağı qənaətindədir: "Bu məsələdə qanunun ancaq müəyyən qədər təsiri ola bilər. Çünki bu məsələnin tibbi-fizioloji tərəfləri ilə yanaşı, mənəvi-psixoloji tərəfləri də var. USM müayinəsindən uşağın cinsini müəyyənləşdirməyi rəsmi qadağan edəcəklər, qadın bir həkim tapıb soruşacaq. Hansı üsulla bunun qarşısını almağa çalışsalar da, yenə kənardan sızmalar olacaq. Tailand qanunvericiliyində də abort qadağan olunub. Amma abortların sayına görə öndə gedən ölkələrdən biridir. Qadağalar səbəbindən gizlin abortlar geniş yayılıb ki, bu da digər problemlərin ortaya çıxmasına səbəb olur".

Hazırda selektiv abortların artmasının daha çox əhalinin seçimi olduğunu deyən İ.Cavadova hesab edir ki, zəruri hallar istisna olmaqla bu problem kökündən həll edilməlidir: "Uşaq istəməyən ailələr profilaktik tədbirlər yolu ilə hamiləliyi qabaqlamalıdırlar. Qadınlar istənməyən hamiləliyin qarşısının alınması ilə bağlı maarifləndirilməlidir. Mən də hesab edirəm ki, bu sahədəki maarifləndirmədə əsas yük KİV-lərin üzərinə düşür. Abortun qadın orqanizminə ziyanı, ortaya çıxardığı fəsadlar barəsində mütəxəssis rəyləri alınmalı və cəmiyyət bilgiləndirilməlidir. Təbii ki, abortların qadağan olunması kiminsə subyektiv arzusu deyil ki. Bu layihə baş verə biləcək fəsadların qarşısının alınması istiqamətində gündəmə gətirilib. Selektiv abortlar çox ciddi problemdir, bu ölkənin həm demoqrafik vəziyyətinə, həm genefondun qorunmasına, həm də əhalinin cins tərkibinə təsir edir. Digər tərəfdən də istənilən abortda ölüm riski var. Hər bir abort sonsuzluğa səbəb ola bilər, bundan başqa, qanaxma, infeksiya, ölüm riskləri də istisna olunmur. Abort qadının hüququ ola bilər, amma sırf qız övladı istəmir deyə, doğulmamış bir uşağın həyatına son qoymaq doğru deyil. Axı valideyn bununla həmin uşağın yaşamaq hüququnu əlindən almış olur. Hesab edirəm ki, qız uşaqlarının tələf olunmasına səbəb olan amillər cəmiyyətdə mövcud olan yanaşmalar, stiqmalar, müxtəlif stereotiplər və eyni zamanda, maarifləndirmənin bir qədər zəif olmasıdır. Hansı ki, xaricdə xüsusi video-roliklər hazırlanır və orada abort zamanı uşağın keçirdiyi hiss-həyəcan əks olunur. Məncə, Azərbaycanda da bu cür vasitələrdən istifadə edib, valideynləri cinsi ayrı-seçkilik fikrindən daşındırmaq olar. Hətta çoxları abort zamanı qadının keçirdiyi hisslərdən, çəkdiyi ağrılardan da xəbərsizdir. Bizi qarşıda gözləyə biləcək böhranın qarşısını indidən almaq üçün orta məktəblərdən başlayaraq ali təhsil müəssisələrində də maarifləndirmə işləri aparılmalıdır. Ailələrlə söhbətlər aparılmalı, ağsaqqallar işə cəlb edilməlidir. Bu problemin həlli təkcə bir komitənin, bir qurumun öhdəsinə verilməməlidir, ictimaiyyət olaraq biz hamımız bu işdə iştirak etməliyik".

Birlik sədrinin sözlərinə görə, dölün məhv edilməsində ən böyük günah təkcə bu işi həyata keçirən həkimlərin üzərinə düşmür, valideynlərin də məsuliyyəti böyükdür: "Sadəcə, bu kimi məsələlərdə maarifləndirməni önə çəkmək lazımdır. Hesab edirəm ki, aborta qarşı sərt qadağaların tətbiqi qiymətlərin bahalaşmasından başqa bir işə yaramayacaq. Hansı ki, bu da özlüyündə abortun xəstəxanada deyil, evlərdə edilməsi və ya digər qanunsuz üsullarla həyata keçirilməsinə səbəb ola bilər. Bir çox hallarda tibb bacıları daha ucuz qiymətə qeyri-tibbi üsullarla aborta nail ola bilirlər. Bunun isə qadının həyatı bahasına başa gəlməcəyinə heç kəs zəmanət vermir".

Şəymən

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

Bakıda sığınacaqların sayı çox azdır

Küçə uşaqları hər an cəmiyyət üçün təhlükə mənbəyidir

İl ərzində qərəzli şəkildə təhsildən yayındırılan 13 uşaq müəyyən edilib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimovanın sözlərinə görə, Komitə həmin məsələləri araşdırıb: "Belə hallar aşkarlananda dərhal hərəkətə keçilir və müvafiq tədbirlər görülür".

Komitə rəsmisi açıqlamasında maraqlı məsələyə diqqət çəkib. Elə uşaqlar var ki, əxlaqsız həyat tərzi yaşayır, bəziləri cinsi zorakılığa məruz qalanlardır. Sığınacaqlar belə uşaqları qəbul etmək istəmirlər. Bu, ciddi problemdir.

Qadın və Uşaqların Təhsilinə Dəstək İctimai Birliyinin rəhbəri Sevinc Fədainin "Şərq"ə açıqlamasına görə, qədim dövrlərdən bəri mövcud olan, lakin qloballaşan dünyada universal problemə çevrilən küçə uşaqları fenomeni bütün cəmiyyətləri ciddi təhlükə ilə üz-üzə qoyan mühüm məsələdir: "Küçə uşaqları problemi məişət zorakılığı, uşaqlara qarşı hər cür zorakılıq, kənddən şəhərə köç, yoxsulluq kimi bir çox sosioloji problemlər ortaya çıxarır. Qeyd olunan səbəblərdən küçəni evdən üstün tutanlar və ya küçədə işləmək məcburiyyətində qalanlar, yəni "küçə uşağı"na çevrilmiş uşaq hər cür təhlükə ilə iç-içə qeyri-adi bir həyat yaşayır, ailə bağları zəifləyir, vaxt itirilir, narkotik maddədən sui-istifadə riski ilə üzləşir. Bu baxımdan həm özləri, həm də cəmiyyət üçün ciddi təhlükə doğururlar. Təbii ki, belə olduğu halda təhsildən də yayınırlar.

Küçə uşaqları problemi ilə bağlı həyata keçirilən siyasətlər bütün dünyada çox önəmlidir. Yaxşı olardı ki, ölkəmizdə də onlarla bağlı xüsusi bir siyasət, fəaliyyət proqramı olsun. Çünki onların özləri və cəmiyyət üçün təhlükəsinin miqyası günü-gündən artır".

Sevinc xanımın sözlərinə görə, Taliyə İbrahimovanın diqqət çəkdiyi problemin, yəni sığınacaqların əxlaqsız həyat tərzi yaşayan uşaqları qəbul etməməsinin səbəbi budur: "Bu gün küçə uşaqları potensial cinayətkar kimi görünür, həmçinin onlara qarşı çoxlu üstü açılmamış cinayətlər törədilir. Bizim sığınacaqlar da məhdud saydadır və həmin sığınacaqlar zorakılığa məruz qalmış çarəsiz qadınları, təhlükədə olan qız uşaqlarını və cinsindən asılı olmayaraq azyaşlı uşaqları qəbul edir. Sığınacaqda qız uşaqlarının, xüsusilə reabilitasiya keçən həssas bir qrupun məskunlaşması sözügedən həyat tərzi sürən uşaqların qəbuluna imkan vermir.

Bu uşaqları təhlükədən xilas etmək, yaşatmaq üçün sosial, iqtisadi, mədəni və təhsil araşdırmalarının aparılması lazımdır. Eyni zamanda, bu problemin yaranmasına səbəb olan amillər minimuma endirilməlidir.

Küçədə yaşayan və çalışan, təhlükə altında olan uşaqlar üçün xüsusi sığınacaqlar yaradılmalı, onlarla xüsusi bir proqram üzrə psixoloqlar, həkimlər, pedaqoqlar məşğul olmalıdır. Bu, həmin uşaqları həm özlərinə, həm də cəmiyyətə qazandıracaq. Küçə uşaqları problemi vicdan və mənəviyyat məsələsi olmaqla yanaşı, cəmiyyətin bəzi təbəqələrinin mübarizəsi ilə bağlıdır. Bu, sosial bir hadisədir. Buna görə də bu fenomenin sosial mənşəyinə müraciət etmək lazımdır".

S.Fədainin fikrincə, durumun bu yerə gəlib çıxmasına səbəb həm də təbəqələşmə - varlılarla yoxsullar arasında uçurum, iqtisadi çətinliklər, ailə münaqişələri, tək anaların çətinlikləri, bununla bağlı uşaqlara xidmət göstərəcək qurum və təşkilatların məhdud sayda olmasıdır: "Ona görə də, ilk növbədə, bu tipli müəssisə və qurumların, vəqflərin, reabilitasiya mərkəzlərinin yaradılmasına, həmçinin onlarla işləyəcək mütəxəssislərin yetişdirilməsinə yönəlik addımlar atmaq, araşdırmalar və layihələr həyata keçirmək lazımdır. Bu uşaqların, ilk növbədə, qorunmağa, hər mənada sağalmağa, daha sonra təməl dəyər və həyat bacarıqları qazanmağa, təhsil almağa ehtiyacları var. Bunu da etmək hazırda mövcud olan sığınacaqların imkanları çərçivəsində deyil. Buna dövlətin dəstəyi ilə müvafiq qurumların koordinasiyalı işi nəticəsində nail olmaq olar".

Şəymən

Məhərrəm ayında nəzarətin güclənməsi təbiidir

Problem ondadır ki, son zamanlar İran ayinlərdən siyasi məqsədlər üçün istifadə edir

Qafqaz Müsəlmanları İdarəsində Məhərrəm ayının başlanması ilə əlaqədar iclas keçirilib. Şeyxülislam Allahşükür Paşazadə İdarənin Qazılar Şurasının üzvlərinə, səlahiyyətli nümayəndələr və imamlara Məhərrəm ayı ilə bağlı tövsiyə və tapşırıqlarını bildirib. Şeyxülislam Əhli-Beytə ehtiram nümunəsi olan bu ayın Vətən müharibəsi şəhidlərimizin anılması üçün müqəddəs məqam olduğunu qeyd edib.

Hacı Allahşükür Paşazadə Qarabağ Zəfərinin müəllifinin müzəffər Azərbaycan Prezidenti, onun müdrikliklə irəli apardığı Azərbaycan xalqı, rəşadətli Azərbaycan Ordusu olduğunu vurğulayıb. Vətən müharibəsində qələbəmizin əsas qüvvətverici amillərinin dövlət-xalq birliyi, dövlət rəhbərinin ətrafında sıx birləşmək, cəmiyyətimiz daxilində milli və dini birlik olduğuna diqqəti çəkib. QMİ sədri din xadimlərinin üzərinə düşən mənəvi vəzifələri xüsusi xatırladıb. QMİ Qazılar Şurasının Məhərrəm ayının başlanması ilə əlaqədar müraciəti oxunub və qəbul olunub. Müraciətdə Aşura mərasimləri ilə bağlı konkret tapşırıq və tövsiyələr yer alıb. O cümlədən, münasib təziyədarlıq nümunələrindən biri kimi ənənəvi keçirilən qanvermə aksiyaları barədə məlumat verilib. İclasda iştirak edən Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Məhərrəmlik mərasimləri dövründə də dinimizin dəyərlərinin insanlara çatdırılmasında din xadimlərinin üzərinə düşən məsuliyyəti xatırladıb. Mərasimlərdə xurafat elementlərinin yer almaması üçün diqqətli olmağı tövsiyə edib.

İlahiyyatçı-alim Tural İrfan "Şərq"ə bildirib ki, əslində islam dinində "Məhərrəmlik" anlayışı olmasa da, ölkəmizdə Məhərrəm ayında müəyyən ayinlər keçirilir. Ekspert bildirib ki, Səfəvilərdən sonra formalaşan ənənəyə əsasən bu tədbirlər icra olunur: "Problem ondadır ki, son zamanlar İran bu ayinlərdən siyasi məqsədlər üçün istifadə edir. Ölkəmizdə də kifayət qədər İranmeyilli adamlar var. Ona görə nəzarətin güclənməsi və tədbirlərin məhdudlaşdırılması təbiidir. İmam Hüseyni yad etmək üçün toplaşıb zəncir vurmağın, ağı deməyin, xurafatçılıq etməyin özü günahdır və İmamın yoluna müxalifdir. Yəni bu tədbirlərin mahiyyəti İmam Hüseynin şəhadət və şücaətini təbliğ etmək yox, əksinə, hörmətdən salmaqdır. Bunun yeganə mahiyyəti yalnız siyasi amaldır".

İlahiyyatçının fikrincə, ölkədəki bütün din işlərinin hamısının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə verilməsi daha uyğun olardı: "İran və Rusiyanın maraqlarına xidmət edən, İran müctəhidlərinə bağlı adamlar çoxdur. Onlara nəyisə həvalə etmək təhlükəlidir. Ayinlərin icrasını Dini Komitə öhdəsinə götürməlidir. İrana bağlı olan bütün din xadimləri uzaqlaşdırılmalı, zərərsizləşdirilməlidir. Ondan sonra istənilən dini tədbirin kütləvi halda keçirilməsi problem yaratmayacaq. Dini siyasi məqsədlərə alət edən İran Əhli Beyti də alətə çevirib".

İsmayıl

Ölkəmizdə kifayət qədər kadrlar mövcuddur

Milli reytinq agentliyinin fəaliyyət istiqamətlərini uyğunlaşdırmaq çətin olmayacaq

Azərbaycan Mərkəzi Bankı milli reytinq agentliyinin yaradılması imkanlarını nəzərdən keçirir. Mərkəzi Bankın sədri Taleh Kazımovun sözlərinə görə, hazırda Mərkəzi Bank bu sahədə beynəlxalq təcrübəni öyrənir.

İqtisadçı-ekspert Cəfər İbraimlinin "Şərq"ə açıqlamasına görə, reytinq qurumları bankları, şirkətləri risk dərəcələrinə görə kateqoriyalara bölür. Onların verdiyi reytinq balı əsasında hər hansı bir şirkətin aktivləri, xarici valyuta mövqeyi, ödəniş qabiliyyəti üçün risk dərəcəsi bəlli olur: "Daha dəqiq desəm, reytinq agentlikləri bankların və ya iri korporasiyaların ödəmə qabiliyyətinin, borc öhdəliklərinin, korporativ idarəetmənin keyfiyyətinin, aktivlərin idarə edilməsinin keyfiyyətinin və s. nüansların qiymətləndirməsini həyata keçirən kommersiya qurumlarıdır. Reytinq agentliklərinin ən populyar məhsulu - kredit reytinqləridir. Bu reytinq özündə borc öhdəliyi ilə əlaqədar ödəməmə riskini əks etdirir və faiz dərəcələrinin həcminə, borc öhdəliklərinin dəyərinə və gəlirliyinə də təsir edir. Bu zaman ən yüksək reytinq minimum ödəməmə riskinə müvafiq olur. Reytinq agentliklərinin reytinq qiymətlərinin hesablanması və açıqlanmasının bir-birindən fərqlənməsinə baxmayaraq yenə də ümumi qanunauyğunluğu görmək mümkündür. Reytinq agentlikləri banklara, korporasiyalara və müstəqil dövlətlərə verdiyi suveren reytinqlərdən əlavə, həmçinin də bir və ya altı aylıq proqnozlar da verirlər.

Azərbaycanda milli reytinq agentliyinin yaradılması ilə bağlı uzun müddətdir müzakirələr gedirdi. Ölkədəki iqtisadi subyektlərin risk dərəcələri qiymətləndirilib elan olunacaq. Agentliyin verdiyi bala uyğun olaraq da investorların bank və ya şirkətlərin performansı, səhmlərinin gələcək bazar qiymətlərinə dair gözləntiləri müəyyənləşəcək".

C.İbrahimlinin sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən banklar və beynəlxalq aləmdə əməliyyatları olan böyük şirkətlərin maliyyə mütəxəssisləri tərəfindən dünyanın aparıcı reytinq təşkilatlarının fəaliyyəti yaxından izlənilir. Onların reytinq ölçə, bal vermə, qiymətləndirilmə prinsipləri demək olar ki, artıq mənimsənilib. Ölkəmizdə bu sahədə kifayət qədər yetişmiş kadrlar var. Bu baxımdan milli reytinq agentliyinin fəaliyyət istiqamətlərini uyğunlaşdırmaq çətin olmayacaq.

Şəymən Bayramova

"Şəhid ailəsi və qazi qapı döyməməlidir"

Tamilla Qulami: "Üçüncü Qarabağ savaşının olmayacağından heç kim sığortalanmayıb"

Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetlərindəndir. Lakin araşdırmalar hələ də qazilərin, şəhid ailələrinin sosial problemlərinin həlli maddi və təminatı ilə bağlı çoxsaylı problemlərin qaldığını göstərir.

Belə qazilərdən biri Vətən müharibəsi iştirakçısı Məlik Məlikovdur. Baku TV-yə problemini açıqlayan M.Məlikovun sözlərinə görə, Astara Rayon İcra Hakimiyyəti qazilərin şikayətinə baxmır: "Müharibədən sonra müalicəm davam edir. Ev məsələmə görə dəfələrlə icra hakimiyyətinə müraciət etmişəm, iş istəmişəm. Mənə zibil daşımağı təklif etdilər. Bunu özümə ayıb bilmirəm, amma 250 manat maaş mənə necə bəs etsin?".

Qazi dəfələrlə Astara rayon icra başçısının qəbuluna getsə də, ona icra başçısının məzuniyyətdə, gah da yerində olmadığını deyərək qəbul etməyiblər.

Məlik Məlikov söyləyib ki, ona məxsus torpaq sahəsi də əlindən alınıb.

Məsələ ilə bağlı "Şərq"ə danışan "Ümid" Partiyasının sədr müavini Tamilla Qulaminin qənaətincə, Azərbaycanın əksər rayonlarında qazilər və şəhid ailələrin sosial problemləri var: "Ölkəmizdə sosial problemlər ümumvətəndaş problemidir. Amma Qarabağın azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ailələri və qazilər belə durumla üzləşməməlidirlər.

Çünki üçüncü Qarabağ savaşının olmayacağından heç kim sığortalanmayıb. Dövlət məmurları siyasəti elə tənzimləməlidir ki, şəhid ailəsi və qazi qapı döyməsin.

İcra Hakimiyyəti qaziyə niyə zibil daşımağı təklif etməlidir?! Doğrudur, zibil daşımaq da bir işdir. Lakin Qarabağ döyüşçülərinin psixologiyası belə bir işdə çalışmaları üçün uyğun deyil. Problemin həlli yolu qanunla tənzimlənmənin həyata keçirilməsidir".

Aygün Tahir

Rəngli qazlı içkilər koronavirusa meydan verir

Təmiz qidalar virusa qarşı mübarizədə şərtdir

"Təbii olan karbohidratlar, mövsümi meyvələr, tərəvəzlər, istehlak etmək məqsədə uyğundur və faydalıdır"

Dünya əhalisi yenidən COVİD-19 bəlası ilə üzüzədir. Bütün ölkələr üzrə koronavirusa yoluxma sayı sürətlə artır. Azərbaycan da daxil bir sıra ölkələrdə ciddi artım hiss olunur. Mütəxəssislərin fikrincə, payız aylarında infeksiyanın sürətli yayılma ehtimalı və vəziyyətin qarşısıalınmaz hal alacağı da istisna deyil.

Qida məsələləri üzrə mütəxəssis Ağa Salamov isə hesab edir ki, bu yoluxmalar süni şəkildə süni qidalar kimi yayılıb, dünya əhalisini cənginə alır. Təbii ki, burada əsas məqsəd dünya dərman şirkətlərinin çirkin siyasəti və ÜST-ə qarşı əllərində qalan vaksinlərin satışına görə edilən basqıdır. Onun sözlərinə görə, payız aylarında hava-damcı yolu ilə yayılacaq koronavirus dalğası qış aylarında da davam edəcək. Biz isə hər ehtimala qarşı orqanizmin immun sisteminin bərpa olunması üçün, əlimizdən gələni etməliyik ki, yoluxmanı maksimum aşağı səviyyəyə sala bilək və ya əgər yoluxsaq belə virusla mübarizə aparmağa gücümüz çatsın. Bunun üçün düzgün və faydalı qidalanmaq, həmçinin fiziki olaraq idmanla da məşğul olmaq lazımdır: "Bir qayda olaraq immun sisteminin gücləndirilməsi üçün zərərli və heç bir faydası olmayan boş karbohidratlardan (rəngli qazlı içkilər, enerji içkiləri, fast food, dərin yağda bişmiş fri kartof, çipsilər, şəkər tozu, şirniyyatlar, xaricdən idxal olunan meyvə və tərəvəzlərdən, xaricdən idxal olunan ət və ət məhsullarından, emal olunmuş un məmulatlarından hazırlanan qida məhsullarından) uzaq durmaq lazımdır.

Əvəzində faydalı və təbii olan karbohidratlar, mövsümi meyvələr, tərəvəzlər, istehlak etmək məqsədə uyğundur və faydalıdır.

Emal olunmuş və hisə verilmiş ət və ət məhsullarından (kolbasa və sosiska məmulatları, hisə verilmiş balıq, toyuq və ya qırmızı ət məhsulları, konservalar, və s.) uzaq durmalı və əvəzində sağlam mənşəyi məlum olan ət, balıq məhsulları istehlak etmək lazımdır. Qırmızı ət məhsullarında olan dəmir , B12 vitamini və sink kimi mikroelementlər olduğu kimi, balıq məhsullarında da Omega 3 əvəzolunmaz yağ turşusu həmçinin D vitamini, B qrupu vitaminləri, fosfor, kalium və natrium var.

Rafinə olunmuş trans yağlar əvəzinə, ət məhsullarını bişirərkən organik olan kərə yağı, quyruq yağı, nehrə yağı və ya məhsulun öz yağında bişirməklə istehlak etmək olar. Salatlarda zeytun yağı, kətan toxumu yağı, küncüt yağı və s. qatmaqla istehlak etmək daha faydalıdır. Boş karbohidrat və heç bir faydası olmayan rəngli qazlı içkilər və enerji içkiləri əvəzinə, faydalı olan içkilər istehlak edilməsi vacibdir. Bunun üçün isti içkilərdə, zəncəfilli çay, çobanyastığı çayı, kəklikotulu çayı, nanə limonlu çay, darçın çayı, kompotlarda, feyxoa kompotu, reyhan kompotu, alma-armud kompotu, təzəzə sıxılmış meyvə şirələri, nar şirəsi, kök şirəsi (içinə mütləq azca zeytun yağı əlavə etməklə), alma şirəsi, çuğundur şirəsi və s. istehlak etmək daha sağlam və faydalıdır".

Şəymən

ELAN

Hörmətli səhmdarlar,

Diqqətinizə çatdırmaq istəyirik ki, 14sentyabr 2022-ci il tarixdə saat 11.00-da Bakı şəhəri, Capian Plaza, 18-ci mərtəbə, 2-li otaq, Marie Curie zalı ünvanında "İsmayıllı Şərab-2" ASC-nin Səhmdarların növbəti Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1.Cəmiyyətin Nizamnaməsinin yeni redaksiyasının qəbul edilməsi

2.Cəmiyyətin 2021-ci il üzrə maliyyə göstəricilərinin auditinə dair hesabatın təsdiqi

3.Cəmiyyətin İdarə Heyətinin tərkibinin dəyişikliyi

4.Borc müqavilələrinin təsdiqi

5.Cəmiyyətin təşkilati strukturun təsdiqlənməsi

6.Cəmiyyətin Səhmdarlarının Ümumi Yığıncağının və İdarə Heyətinin əsasnamələrinin təsdiqi

7.Struktur bölmələrin əsasnamələrinin hazılanmasını məsələsinə baxılma

8.Cəmiyyətin auditinin həyata keçirilməsi üçün kənar audit şirkətinin təyin edilməsi

9.Yığıncağın gündəliyində duran digər məsələlər.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar əlavə olunur.

"İsmayıllı Şərab-2" ASC-nin İdarə Heyəti

Elan

Məmmədov İlham Rəşid oğluna məxsus Yasamal rayonu, Həsən bəy Zərdabi 92, blok 9, mənzil 1034 ünvanında yerləşən mənzilin çıxarış sənədi itdiyi üçün etibarsız sayılır.



Dərmanlar bahalaşır!

Yerli istehsala başlamaq lazımdır

Son dövrlərdə Azərbaycanda dərmanların qiymətində pərakəndə və kəskin artım müşahidə olunur.

Tələbatı yüksək olan dərman preparatları ya tapılmır, ya da şişirdilmiş qiymətlərə satılır. Bütün bunlar azmış kimi Tarif Şurası bir sıra dərmanların qiymətini qaldırıb. Dərmanların qiyməti çeşidindən asılı olaraq orta hesabla 10-15 faiz civarında bahalaşıb. Ancaq elə dərmanlar var ki, daha çox bahalaşıb. Məsələn, Medoklav dərmanının qiyməti 46 faiz artaraq 72 manata yüksəlib.

İqtisadçı-ekspert Eldəniz Əmirov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda dərmanların və digər tibbi avadanlıqların yüksək qiymətə satılmasının əsas səbəbi sözügedən sahənin idxaldan asılı olmasıdır: "Yerli istehsalla bağlı müəyyən cəhdlər olsa da, nəticə effektsiz olub. İdxal prosesində belə rəqabət yoxdur. Ölkəyə dərman idxal edən təsərrüfat subyektlərinin sayı çox azdır. Bütün bunlar da son nəticədə dərman preparatlarının üzərinə qoyulan qiymətlərin daha yüksək olmasına gətirib çıxarır".

İqtisadçının sözlərinə görə, Tarif Şurasının dərmanların qiymətini bahalaşdırmasının ən əsas səbəbi isə qlobal inflyasiyalar, Rusiya-Ukrayna müharibəsidir: "Ölkəyə gətirilən dərmanlar arasında Rusiyadan alınan preparatlar çoxluq təşkil edir. Müharibədən sonra da Rusiyada dərman istehsalı sahəsində ciddi problemlər ortaya çıxıb deyə Azərbaycana idxalın həcmi azalıb. Rusiyanın tibb sənayesində xammal ehtiyatının demək olar 80-82 faizi xaricdən idxal hesabına ödənirdi. Rusiyaya tətbiq olunan sanksiyalardan sonra həmin xammalın idxalında məhdudiyyətlər yaratdı deyə dərman sənayesində ciddi tənəzzül yaşanmağa başladı. Sözsüz ki, idxaldan asılı olan Azərbaycan da bu proseslərdən kənarda qala bilməzdi deyə dərmanların qiyməti sürətlə bahalaşır". Ekspertin fikrincə, baş verənlərdən nəticə çıxarıb yerli istehsala başlamaq lazımdır. Təbii ki, istehsal işini ölkədə təmin etmək kompleks yanaşma tələb edir.

Şəymən

Proseslər ağrısız ötüşməyəcək

Ancaq institutların Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi işin xeyrinə olacaq

Prezident İlham Əliyev elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb. Fərmanla Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırılacaq və elm sahəsində dövlət siyasətini, tənzimləməni həyata keçirəcək.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) əsasən texniki, təbiət elmləri ilə bağlı institutları Elm və Təhsil Nazirliyinin tabeliyinə verilsə də, bu, akademiyanın ləğvi mənasına gəlmir. Fərmana əsasən nazirlik bu qurumların sayının optimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təkliflərini hökumətə təqdim etməlidir. Hazırda ciddi maraq doğuran məsələ məhz nazirliyin tabeliyinə verilən elmi institutların fəaliyyətinin necə səmərəli qurulmasıdır.

"Şərq" xəbər verir ki, "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Elmi institutların taleyi necə olacaq" sualına aydınlıq gətirib.

O.Gündüzün qənaətincə, son zamanlar aparılan müzakirələrdən, Prezidentin adıçəkilən fərmanından və "Azərbaycan-2026" Strategiyasından belə qənaətə gəlmək olar ki, nazirlik qısa müddətdə tabeliyindəki elmi institutların fəaliyyət istiqamətləri üzrə universitetlərin tabeliyinə verilməsini təmin edəcək: "Yəni artıq nazirliyin tabeliyindəki İqtisadiyyat İnstitutu Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tabeliyinə, Riyaziyyat və mexanika İnstitutu Bakı Dövlət Universitetinin (BDU) tabeliyinə, İnformasiya texnologiyaları və keçmiş Kibernetika instututu Azərbaycan Texniki Universitetin (AzTU) tabeliyinə, Neft və Qaz İnstitutu Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) və ya Bakı Ali Neft Məktəbinə verilməsi mümkündür. Axır vaxtlar nazirlik və universitetlər daha çox elmi tədqiqat və innovasiya yönümlü, araşdırma istiqamətində fəaliyyətin təşkilinə üstünlük verirlər. Həmçinin universitetlərin bir çoxu universitet - sənaye iş birliyinin yenidən qurulması istiqamətində çalışırlar. Nazirlik mövcud elmi institutları universitet-

lərin tabeliyinə verməklə elmi tədqiqat yönümlü fəaliyyətin gücləndirilməsinə, ali təhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə şərait yaradacaq.

Hazırda universitetlərin böyük əksəriyyətində tədqiqat yönümlü, innovasiya yönümlü fəaliyyət çox zəifdir. Yeni yaradılan Elm və Ali təhsil üzrə Dövlət Agentliyi də, bu sahədə işləri qaydaya salmaq üçün çox işlər görməlidir". O.Gündüz söyləyir ki, bir çox universitet rəhbərləri hansı elmi instututların onlara birləşdiriləcəyini də səbirsizliklə gözləyirlər: "Proseslər ağrısız da ötüşməyəcək. Universitetlərin tabeliyinə verilən institut rəhbərləri ilə bəzi rektorlar arasında müəyyən konfliktlərin də yaranacağı gözlənilməndir. Eyni zamanda elmi institutların universitetlər üçün əlavə yükə və əlavə problemlərə yol açmasına da imkan yaratmaq deyil. Yeni yanaşmalara görə elmi institutlarda aparılacaq optimallaşdırma və ixtisarlar əlavə problemlər də yarada bilər. İnstitut rəhbərlərinin universitetlərin rektorlarının təqdimatı ilə nazirlik tərəfindın təyin olunması da məntiqli və ağlabatan olardı. İnanıram ki, Elm və Təhsil Nazirliyi yeni formalaşmış situasiyanı, Prezidentin fərmanında və adıçəkilən Strategiyada elm və təhsilin inkişafı üçün nəzərdə tutulanları doğru dəyərləndirəcək. Sektorun sürətli inkişafı üçün daha effektiv və səmərəli mexanizmlər məyyənləşdirəcək".

Aygün Tahir

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2083**

Ronaldoya pul əvəzinə 20 qoyun təklif edildi

Bu ironik elan "Kİ Klavsik" klubunun "Twitter" səhifəsində dərc olunub

Farer Adalarının "Kİ Klavsik" klubu Kriştian Ronaldoya təklif göndərib.

Oxu.az ildirir ki, klub ulduz futbolçu üçün 20 qoyun təklif edib.

Bu ironik elan "Kİ Klavsik" klubunun "Twitter" səhifəsində dərc edilib. "Biz Ronaldoya 20 ən yaxşı qoyunumuzu təklif etdik", - klubun paylaşımında qeyd olunur.

Qeyd edək ki, 37 yaşlı Ronaldo hazırda çıxış etdiyi "Mançester Yunayted"i tərk etmək barədə düşünür.

"Dünyanın ən möhtəşəm yerləri"

İstanbul da siyahıda yer alıb

İstanbul şəhəri "Time" jurnalının "2022-ci ilin ən gözəl 50 yeri" siyahısına daxil edilib.

Azərtac xəbər verir ki, "Time" jurnalının budəfəki buraxılışının mövzusu "Dünyanın ən gözəl yerləri" olub. Toronto, Mayami, Boqota, Marsel, Nayrobi, Seul, Şimal Qütb bölgəsi və Dolni Morava ilə yanaşı, jurnalının üz qabığında adı qeyd olunan ərazilər arasında İstanbul şəhəri də ilk sırada yer alıb.

Jurnalda İstanbulla bağlı bölməyə "Klassik bir yenidən doğuş" başlığı verilib.

Ata qızının sevgilisini küçədə döyüb



Ata qızının sevgilisini küçənin ortasında döyüb.

İstanbul "Esenyurt"da qızının sevgilisi olduğunu öyrənən ata məhəlləni bir-birinə qatıb. Qəzəblənən kişi övladının sevdiyi adamı insanların gözü qarşısında təpik və şillə ilə vurub.

Ətrafdakı digər vətəndaşlar hiddətlənən atanı çətinliklə sakitləşdiriblər. Hətta hadisə zamanı müxtəlif adamlar da əllərində dəyənəklə davaya qarışıb.

Həmin anlar mobil telefonla lentə alınıb.

Şakiraya 8 il həbs cəzası tələb edilib

İspaniyada vergidən yayınma ittihamı ilə mühakimə olunan kolumbiyalı ulduz müğənni Şakiraya 8 il həbs cəzası tələb edilib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, İspaniyada təxminən 15 milyon avro vergidən yayınmaqda günahlandırılan və barışmaq əvəzinə günahsızlığını sübut etmək üçün məhkəməyə müraciət etməyə qərar verən dünya şöhrətli sənətçi üçün tələb olunan cəza bəlli olub.

Nəhayət, Jerar Pikedən səs-küylü ayrılığı ilə dünyada gündəm olan 45 yaşlı kolumbiyalı ulduza prokurorlar 8 il həbs cəzası istəyib.

Cəmi bir neçə saat çəkdi

Conni Deppin əsərləri 3,65 milyona satıldı

Hollivud ulduzu, musiqiçi Conni Depp bu dəfə sevənlərinin qarşına rəssam kimi çıxıb.

Axşam.az xəbər verir ki, aktyor Londonda "Castle Fine Art" onlayn mağazasında əsərlərini satışa çıxarıb. Conni "Friends And Heroes" debüt kolleksiyasından olan rəsmlərini bir neçə saat ərzində 3,65 milyon dollara satıb.

Portretlərdə müğənni Bob Dilan, aktyor Al Paçino, aktrisa Elizabet Teylor və The Rolling Stones qrupunun gitaraçısı Keyt Riçards təsvir olunub. Ümumilikdə 780 əsər satılıb.

Selfiyə görə şagird cəzalandırıldı

Çində məktəb yay tətilində çəkdirdiyi selfiyə görə şagirdi cəzalandırıb.

Oxu.az ildirir ki, o, məktəb qadağasını pozaraq fotonu sosial şəbəkədə yayımlayıb.

Məlumata görə, Liaonin əyalətində bir məktəb öz şagirdlərinə Çin sosial şəbəkəsi "WeChat"da hesab açmağı qadağan edib.

Qadağanı pozan qıza müəllimdən mesaj gəlib və onun təhsil prosesi bərpa olunandan sonra cəzalandırılacağı bildirilib.

Doğma ailəsinə dönəndə dəhşət yaşadı

Övladlığa götürülən uşağın başına gəlməyən iş qalmayıb

Doğulandan 3 gün sonra mehriban bir ailə tərəfindən övladlığa götürülən uşağın illər sonra bioloji ailəsinə qaytarılması inanılmaz hadisələrin başlanğıcı oldu. Saysız-hesabsız işgəncələrə məruz qalan uşağın hekayəsi insanı ürpədir.

Kristi və Ceff Foster cütlüyü uşaq sahibi ola bilmirdilər, lakin yenə də valideyn olmaq fikrindən vaz keçmədilər. O qədər uşaq istəyirdilər ki, bacarsalar, bütün uşaqları övladlığa götürüb, saxlayardılar. Nəhayət, 2014-cü ildə Fosterlərin həyatına yeni doğulmuş körpə gəlir. Cütlük övladlığa götürdükləri 3 günlük körpəyə Toni adını verirlər. 5 il hər şey çox yaxşı, qaydasında gedir. Toni palçıqla oynamağı, suya çınqıl atmağı və cizgi filmlərinə baxmağı sevən kiçik bir uşaq idi. Cütlük də rahat idi, çünki Uşaq Mühafizə Xidmətinin sosial işçisi Toninin bioloji valideynlərinin qəyyumluğu bərpa etməsinin mümkün olmadığını bildirmişdi.

Fosterlər Toninin bioloji ailəsinin həbsdə olduğunu bilirdilər. Cütlük bir yerli amerikalı uşağının yerli olmayan biri tərəfindən övladlığa götürülməsinin çətin olacağını bilərək yola çıxmışdılar. Sosial işçi Toninin mədəniyyətindən uzaq tutulmaması barədə də xəbərdarlıq edib. Cütlük müntəzəm olaraq Tonini heyrətləndirməyə (Amerika əsgərləri ilə döyüşməzdən əvvəl hindlilərin toplanması ritualı) və bir çox başqa tədbirlərə, bəzən hətta bunun üçün uzun məsafəli səyahətə də aparırdı. Toni də nağara çalmağı və rəqs etməyi sevirdi. Toni həm də cütlüyün ətrafı tərəfindən tamamilə qəbul edilib.

Lakin bu xoşbəxtlik 2018-ci ildə Hindistan qəbilə məhkəməsinin qərarı ilə Tonini Fosterlərdən alınıb doğma valideynlərinə qaytarılması ilə alt-üst olub. Fosterlər yerli amerikalı olmadığı üçün onlara qəbilə məhkəməsi hakiminin qarşısına çıxmağa belə icazə verməyiblər və qəbilə sosial işçisi vasitəsilə yazışmalı idi. Hakim bir yerli amerikalı uşağını ağdərili ailəyə verməməkdə qərarlı idi və bunu etdi. Toni daha sonra bioloji ailəsinə, Renova Sr-a köçdü və Binqton ilə tanış olduğu bir keçid dövrünə qədəm qoydu.

Bioloji valideynləri həbsdən çıxdıqdan sonra Toni ilə görüş prosesi bir sosial işçinin nəzarəti altında başlayıb. Və nəhayət, Toni Fosterlərdən alınıb.

Bioloji ailə aralarındakı bağın qırılmaması üçün Kristi və Ceffə hər cür söz verib. Deyiblər ki, "Səni onun xaç atası olmağa icazə verəcəyik. Ziyarətə gələrsiz, bir həftəsonunu onunla keçirərsiz. Onu tətilə aparmağa da icazə verəcəyik". Ancaq qəyyumluğa çatan kimi Fosterlərin Toni ilə telefon danışığına belə icazə verməyib. Kristi və Ceff Toninin çarpayısını və oyuncaqlarını ona vermək istəyirdilər. Lakin bioloji ailəsi "Yataq və oyuncaqları gətirməyin, çünki onlar üçün yerimiz yoxdur" deyib. Amma otağı belə olmayan Toni yerdə uzanmışdı.

Kristi sosial işçi ilə daim təmasda olaraq, "Bir şey olarsa, onu geri alacağıq" deyirdi. Ancaq bütün bunlardan cəmi bir neçə ay sonra Tonidən pis xəbər gəlib. 21 noyabr 2019-cu ildə Toninin anası Stefani Qreys Binqton və əri Racso James Birdtail 911-ə zəng edərək oğlunun nəfəs almadığını bildiriblər. Polis evə gələndə isə artıq Toni hadisə yerində ölmüşdü. Uşağın bədənində qançır yerləri olub, ayağı da sınıb. Bütün bunlara baxmayaraq, Toninin valideynləri olduqca rahat görünürdülər. Onların belə bir faciəvi hadisəyə reaksiya verməməsi diqqətdən yayınmayıb. Daha sonra qəddar ana da etiraf edib ki, oğlunu vanna otağında kəmər və elektrik naqilləri ilə vurublar. Həmçinin, Toni valideynləri tərəfindən aclıq və işgəncələrə məruz qalıb. Hakim Elizabeth Bestin fikrincə, Toni son günlərində ölümdən də betər bir həyat yaşayıb. 5 yaşlı oğlunu rəsmən qətlə yetirən ailə iyulun 26-da ömürlük həbs cəzasına məhkum edilib. Onların dostu Birdtail hücuma görə 5 il, sübutları saxtalaşdırdığına görə isə 10 il həbs cəzasına məhkum edilib.

Turan

4 dəqiqəyə tam enerji yığır

5221 at gücündə sürət canavarı 4,5 milyon dollara satılacaq

Elektriklə işləyən avtomobillərə maraq günü-gündən artdıqca yeni modellərin xəbərləri gəlməyə davam edir. İstehsalda olan modellərlə yanaşı, gələcəyə hesablanmış dizaynlar da təqdim olunur. Onlardan biri də "Alineo Unum"dur. Dörd il əvvəl ilk model "Arcanum"u elan edən Bolqarıstanda yerləşən "Alieno" şirkəti, bu avtomobili istehsal etməzdən əvvəl ikinci modeli "Unum"u elan edib.

2015-ci ildə Bolqarıstanda qurulan "Alieno" şirkəti dörd il əvvəl ilk "Arcanum" modellərini təqdim edib. "Arcanum" hələ istehsal olunmasa da, şirkət yeni modelini elan edib.

Şəkilləri və bəzi texniki detalları paylaşılan modelin adı "Unum"dur.

Bir neçə versiyadan ibarət olan "Unum" modelinin texniki xüsusiyyətləri heyrət doğurur. Hətta avtomobilin giriş modelində 2610 at gücü (1946 kVt) təklif olunur.

"Unum"un giriş səviyyəsində 12 elektrik mühərriki olduğu halda, yuxarı versiyalarda 24 motor-ev hava itələyicisi var.

Bolqarıstan şirkətinin açıqladığı bu soyuq hava itələyiciləri xaricdən fərqli barmaqlıqların altına yerləşdirilib, yol səthindən qar, buz və palçığı təmizləyərək təkərlərin ön hissəsini sabitləşdirmək, tormozlamaq və hətta təmizləmək üçün istifadə olunur.

"Unum"un top modelləri 3482 at gücü, 4351 at gücü və 5221 at gücü və 8800 Nm fırlanma anına malikdir. "Unum"un performans tərəfindəki hədəf imkanı saatda 580 km/ sürətdir.

Avtomobilin şarj performansı da diqqətəlayiqdir. Şirkətin iddiasına görə, sifarişlə quraşdırılacaq 2700 kVt-lıq xüsusi şarj cihazları ilə 0-dan 80-ə qədər enerji doldurma müddəti 3,2 dəqiqə, tam doldurulma isə 4 dəqiqəyə tamamlanır.

Firma, 1,8 milyon avrodan başlayan qiymətlərlə "Unum"un giriş səviyyəsi üçün əvvəlcədən sifarişlər almağa başlayıb. Avtomobilin top versiyalarının qiyməti 4,5 milyon dollara olacaq.

Turan

15 yaşlı yeniyetmə 3 qardaşını güllələdi

Hadisə zamanı valideynlər evdə olmayıb

ABŞ-nin Alyaska ştatında 15 yaşlı yeniyetmə naməlum səbəbdən 3 qardaşını güllələyib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, dəhşətli hadisənin ardından 15 yaşlı yeniyetmə intihar edib. Hadisə yerinə çoxlu sayda polis və ilkin tibbi yardım briqadaları gəlib. Hadisə nəticəsində 4 uşağın dünyasını dəyişdiyi, evdə olan 3 uşağın isə xəsarət almadığı bildirilib. Polis hadisə zamanı valideynlərin evdə olmadığını bildirib. Alyaska Ştat Qoşunlarının sözçüsü Tim DeSpain silahın ailəyə aid olduğunu deyib. O qeyd edib ki, səlahiyyətlilər hadisənin səbəbini araşdırır.

Çimnaz Şahlar

Yoxolma təhlükəsi aradan qalxıb

Pələnglərin populyasiyası son 13 ildə üç dəfə artıb



Nepal pələnginin populyasiyası 2009-cu ildən bəri 121 başdan 355 başa qədər artıb və artıq onların yoxolma təhlükəsi aradan qalxıb.

BBC xəbər verir ki, bu istiqamətdə həlledici amil brakonyerliyə qarşı uğurlu mübarizə olub. Hazırda Nepalda yırtıcıların təhlükəsizliyini hərbçilər qoruyur. Lakin pələnglərin populyasiyasının artması yerli sakinlər üçün əlavə təhlükə yaradır. Təkcə son bir ildə 16 nepallı pələng hücumlarının qurbanı olub. Beynəlxalq Təbiəti Mühafizə İttifaqının məlumatına görə, dünyada cəmi 6 mindən də az pələng qalıb. 2010-cu ildə 13 ölkə 2022-ci ilə qədər bu yırtıcıların populyasiyasını iki dəfə artırmaq barədə razılığa gəlib, lakin indiyədək buna yalnız Nepal nail olub.

Ancelina komfortlu paltarlar seçdi

Hollivud aktrisası 2800 dollarlıq pijamada görüntülənli

Hollivud aktrisası Ancelina Coli və oğlu Paks Londonun Hitrou hava limanında görüntülənib.

Bizim.media bildriir ki, evə gedən aktrisa uzun uçuşdan əvvəl komfortlu paltarlar seçərək rahatlığını təmin edib. Aeroportda Ancelina təxminən 2800 dollara başa gələn italyan brendinin kişi seriyasından qəhvəyi rəngli ipək "Valentino" pijamasında peyda olub. Bu, Colinin ümumi Fransız şərab zavodu "Chateau Miraval" ilə bağlı Bred Pittə qarşı məhkəmədə qalib gəldiyi məlum olduqdan sonra ilk dəfə ictimaiyyət qarşısında çıxışıdır.